20 sentyabr 2024 №70 (2135)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

# Külli-Qarabağda abi-həyat – Vətən torpağı dirçəlir

## Ağdamda, Şuşada, Xankəndidə açılışlar və təməlqoyma mərasimləri



Azərbaycanın torpaqlarının otuzillik işğalına son qoyan Vətən müharibəsində (2020) tarixi Zəfərin davamı bir il əvvəl bu günlər – 2023-cü ilin 19-20 sentyabrında yazıldı. Ordumuzun apardığı 23 saatlıq lokal antiterror əməliyyatı nəticəsində Qarabağdakı hərbi-terror rejimi darmadağın edildi, davakar separatizm yuvasının kökü qazıldı, mövcudluğuna son qoyuldu.

"Qarşıda duran bütün vəzifələr cəmi bir gün ərzində yerinə yetirildi..." – 21 sentyabrda Prezident İlham Əliyev xalqa belə dedi.

Azərbaycan külli-Qarabağı öz suverenliyi altına qaytardı. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Şuşa, Ağdam, Kəlbəcər və Laçından sonra Xankəndi, Xocalı, Xocavənd və Ağdərədə də bayrağımız göylərə ucaldı.

Ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası əzəli yurd yerlərimizin yenidən qurulmasına daha böyük vüsət verdi. Ötən dövrdə görülən işlər, həyata keçirilən layihələr bunun bariz təsdiqidir.

***

Prezident İlham Əliyev sentyabrın 19-da Ağdam şəhərində İmarət Kompleksinin bərpadan sonra açılışında iştirak edib.

Mədəniyyət naziri Adil Kərimli dövlətimizin başçısına görülən işlər barədə məlumat verib.

Qeyd edək ki, Ağdam rayonunda erməni vandalizmi nəticəsində dağıdılıb talan edilmiş tarixi-memarlıq tikililərindən biri də Qarabağ xanlığının banisi Pənahəli xanın sarayıdır. XVIII əsrə aid bu tarix-memarlıq abidəsi xan nəslinin ilk mülklərindəndir. Saray Azərbaycan ərazisində inşa edilmiş digər xan saraylarından fərqli olaraq dəbdəbəli yaşayış evi xüsusiyyəti daşıyıb. İşğalda olmuş ərazilərdəki digər tarixi-mədəni və dini abidələr kimi Pənahəli xanın imarəti də ermənilər tərəfindən təhqir edilib, vandalizmə məruz qalıb.

Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın, oğlu İbrahimxəlil xanın, Qarabağın sonuncu hakimi Mehdiqulu xanın qəbirüstü türbələri, Mehdiqulu xanın qızı şairə Xurşidbanu Natəvanın məzarları burada yerləşib. Ağdam şəhəri işğal edildikdən sonra qəbiristanlıq erməni vandalizminin qurbanı olub. İbrahimxəlil xanın türbəsi və Natəvanın qəbirüstü abidəsi də dağıdılıb.

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, 2023–2024-cü illərdə Ağdam İmarət Kompleksində yerli və xarici mütəxəssislərin iştirakı ilə restavrasiya və arxeoloji tədqiqat işləri aparılıb. Ərazisi 3,3 hektar olan kompleks mərasimlərin keçirilməsi üçün nəzərdə tutulmuş tikililər, türbələr, tarixi qəbiristanlıq, Qarabağ atlarının təqdimatı üçün atçılıq kompleksi və ziyarətçi mərkəzindən ibarətdir.

Bildirilib ki, hazırda kompleksin ərazisindəki 6 min kvadratmetrlik sahədə yerləşən tarixi qəbiristanlıqda arxeoloji tədqiqat işləri ikinci mərhələdə davam etdirilir. Aparılan araşdırmalar nəticəsində yeni tarixi faktlar üzə çıxarılıb.

Ağdam İmarət Kompleksi artıq ziyarətçilər üçün açıqdır. Kompleksə gələnlər burada yaradılmış park, ziyarətçi mərkəzi, muzey və kafe xidmətlərindən istifadə edə bilərlər.

Məlumat verilib ki, işğaldan əvvəl kompleksin ətrafında müxtəlif növ ağaclardan ibarət yaşıllıq zonası olub. İşğal zamanı burada da düşmən tərəfindən ekoloji terror həyata keçirilib. Kompleksin qarşısındakı dörd qədim çinar və digər ağaclar məhv edilib.

Prezident İlham Əliyev həmin tarixi çinarların yerində ağac əkib.

### Üzeyir Hacıbəylinin Şuşadakı ev-muzeyi bərpa olunub

Prezident İlham Əliyev sentyabrın 19-da Şuşada Üzeyir Hacıbəylinin Ev-Muzeyinin bərpadan sonra açılışında iştirak edib.

Prezidentin köməkçisi Anar Ələkbərov muzeydə yaradılan şərait barədə məlumat verib.

XIX əsrdə inşa olunan evdə dahi bəstəkarın ev-muzeyi 1959-cu ildə yaradılıb. Burada Hacıbəylilər ailəsinə məxsus ev əşyaları, həmçinin bəstəkarın şəxsi əşyaları, fotomateriallar, kitablar – ümumilikdə 1700 eksponat qorunub saxlanılırdı. Şuşa şəhəri ermənilər tərəfindən işğal edildikdən sonra muzey fəaliyyətini dayandırmış, eksponatları talanmış, binası isə dağıdılmışdı. Muzeyin mövcud 1700 eksponatından yalnız 136-sını qorumaq mümkün olmuşdu.



Muzeydə Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərinə 2022-ci ilin aprel ayından başlanılıb.

Aparılan bərpa işlərinin yekununda yeni ekspozisiya yaradılıb. Burada muzeyin konsepsiyası üzrə Üzeyir Hacıbəylinin Ev-Muzeyinin xilas edilən eksponatları nümayiş olunur.

Muzeyin birinci mərtəbəsində Üzeyir Hacıbəylinin ailəsi, uşaqlıq illəri, təhsili haqqında sənədlər və digər eksponatlar yer alıb. Divarboyu "Sənsiz" romansından notların əks olunduğu fraqment də burada yerləşir.

İkinci mərtəbədə bəstəkarın tamaşaya qoyulan əsərlərinin ilk premyeralarının afişa və proqramları, eləcə də tələbələrini, səfərlərini əks etdirən fotoşəkillər nümayiş olunur. Burada divarboyu "Koroğlu" operasından notların əks olunduğu fraqment yer alıb.

Ev-muzeydə Üzeyir Hacıbəylinin səhnələşdirilən əsərlərindəki obrazlar üçün çəkilən eskizlər, əsərlərinin proqram və afişalarının kollajından ibarət divar da dizayn edilib.

***

Prezident İlham Əliyev sentyabrın 19-da Şuşada Bayraq meydanının açılışında iştirak edib.

Prezidentin xüsusi nümayəndəsi Aydın Kərimov meydanda görülən işlər barədə məlumat verib.

Bayraq meydanı amfiteatr ilə əhatələnib. Ərazinin ümumi sahəsi 9190 kvadratmetr, bayraq dirəyinin hündürlüyü 11,7 metrdir. Ərazidəki çoxillik bitkilərin mütləq əksəriyyəti saxlanılaraq layihəyə inteqrasiya olunub.

Meydanın ətrafında Zəfər muzeyinin, çoxfunksiyalı konsert-tamaşa zalının və alış-veriş mərkəzinin inşa edilməsi nəzərdə tutulur.

*davamı səh. 2-də*

# 20 sentyabr Dövlət Suverenliyi Günü və Xankəndi, Xocalı, Xocavənd, Ağdərə şəhərləri günüdür

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 iyul tarixli Sərəncamına dəyişiklik edilib. Dövlət başçısı İlham Əliyev sentyabrın 18-də bununla bağlı sərəncam imzalayıb.

Dəyişikliyə əsasən, 20 sentyabr tarixi Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərləri günü kimi qeyd ediləcək.

Mədəniyyət Nazirliyinə Azərbaycan Respublikası Prezidentinin aidiyyəti xüsusi nümayəndəlikləri ilə birlikdə sərəncamdan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görmək tapşırılıb.

Beləliklə, otuzillik işğaldan sonra azad edilən torpaqlarımızla bağlı təqvimimizdəki şəhər günlərinin (Laçın – 26 avqust; Cəbrayıl – 4 oktyabr; Füzuli – 17 oktyabr; Zəngilan – 20 oktyabr; Qubadlı – 25 oktyabr; Şuşa – 8 noyabr; Ağdam – 20 noyabr; – Kəlbəcər – 25 noyabr) siyahısına daha biri əlavə olunub.

Prezidentin sentyabrın 19-da imzaladığı digər sərəncamla, 2023-cü il sentyabrın 20-də Azərbaycanın bütün ərazisində qanunun aliliyinin təmin olunduğu və dövlət suverenliyinin bərpa edildiyi nəzərə alınaraq, 20 sentyabr – Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü təsis edilib.

# Üzeyir Hacıbəyli festivalı 10 ölkə musiqiçilərini bir araya gətirib

Sentyabrın 18-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Üzeyir Hacıbəyli XVI Beynəlxalq Musiqi Festivalının açılış mərasimi keçirildi.

Əvvəlcə qonaqlar Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi tərəfindən filarmoniyanın foyesində təşkil edilən "Mədəniyyətimiz naxışların izi ilə" adlı sərgi ilə tanış oldular.

Sərgidə bir sıra görkəmli bəstəkarlarımızın xalça üzərində portretləri, milli musiqi alətlərimizin əks olunduğu rəsmlər və digər əl işləri nümayiş etdirilir. Qeyd edək ki, "Mədəniyyətimiz naxışların izi ilə" sərgisi festival boyu – sentyabrın 28-dək ziyarətçilər üçün açıq olacaq.

***

Filarmoniyanın zalında davam edən mərasimdə səhnəyə çıxan mədəniyyət nazirinin müavini Səadət Yusifova Üzeyir bəyin sənət işığına yığışan hər kəsi salamladı. Dedi ki, bu gün adını



Azərbaycanın musiqi mədəniyyəti salnaməsinə qızıl hərflərlə yazdırmış dahi bəstəkar, musiqişünas, pedaqoq, publisist, ictimai xadim Üzeyir Hacıbəylinin anadan olmasının 139-cu ildönümüdür. 18 sentyabr həm də böyük bəstəkarın şərəfinə ölkəmizdə Milli Musiqi Günüdür. Bu gün 1995-ci il sentyabrın 18-də Ümummilli lider Heydər Əliyevin imzaladığı fərmana əsasən hər il təntənə ilə, çoxsaylı tədbirlərlə qeyd olunur. Bu tədbirlərin ən əhəmiyyətlisi isə Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 2009-cu ildən keçirilən Üzeyir Hacıbəyli adına Beynəlxalq Musiqi Festivalıdır. Musiqi bayramı bu il 16-cı dəfə gerçəkləşir.

Diqqətə çatdırıldı ki, budəfəki festivala ABŞ, Almaniya, Xorvatiya, Avstriya, Türkiyə, Rusiya, Koreya, İspaniya, Braziliya və digər ölkələrdən solist və bədii kollektivlər dəvət olunub.

Qeyd olundu ki, 18–28 sentyabr tarixlərini əhatə edən festivalın proqramı üzrə Bakı ilə yanaşı, Şuşa, Gəncə, Şəmkir, Lənkəran və Naxçıvanda silsilə tədbirlər keçiriləcək. Bu sıraya açıq və qapalı məkanlarda konsertlər, tamaşalar, sərgilər və s. daxildir. Festival çərçivəsində Azərbaycan Milli Konservatoriyasında UNESCO nəzdində fəaliyyət göstərən Ənənəvi Musiqi və Rəqs üzrə Beynəlxalq Şuranın (ICTMD) simpoziumu da təşkil olunub.

*davamı səh. 3-də*

# "Qəlbimdəki şair" – Berlində Məhəmməd Füzulinin yubiley gecəsi

Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin (1494–1556) 530 illik yubileyi münasibətilə Berlindəki Azərbaycan Mədəniyyət Mərkəzində "Qəlbimdəki şair" ("Der Poet in mir") adlı tədbir keçirilib.




Şairin 530 illiyi haqqında ölkə başçısının sərəncamına əsasən təşkil olunan tədbirdə Almaniya dövlət qurumlarının nümayəndələri, diplomatlar, mədəniyyət xadimləri, azərbaycanlı, türk və digər dost icmaların üzvləri iştirak ediblər.

Ölkəmizin Almaniyadakı səfiri Nəsimi Ağayev çıxış edərək mütəfəkkir şairin Azərbaycan və dünya ədəbiyyatına töhfələrindən söz açıb.

*davamı səh. 3-də*

# Eksponatlarla neft sənayesinin tarixinə səyahət...

20 sentyabr Azərbaycanda neft-qaz sahəsində çalışan işçilərin peşə bayramı – Neftçilər Günü kimi qeyd olunur. Bu günün peşə bayramı kimi qeyd edilməsi Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 16 avqust 2001-ci il tarixli fərmanı ilə rəsmiləşdirilib.

Bu günün tarixi isə 1994-cü il sentyabrın 20-də Bakıda Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri" və "Çıraq" yataqları, eləcə də "Günəşli" yatağının dərinsulu hissəsinin (AÇG) birgə işlənməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi haqqında müqavilənin imzalanması ilə bağlıdır.

Müstəsna əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adını alan bu sazişin imzalanması ilə Azərbaycanın iqtisadi müstəqilliyinin əsas təməl daşlarından biri qoyulub və ölkəmiz özünü müxtəlif beynəlxalq layihələrin həyata keçirilməsi və iri investisiyaların qoyuluşu üçün etibarlı tərəfdaş kimi təsdiq edib.

***

Sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalamasının 30-cu ildönümü tamam olur. Bu gün ölkəmizin əldə etdiyi yüksək iqtisadi nailiyyətlər neft strategiyasının uğurlu icrasına əsaslanır. Neft sənayesi digər sahələr kimi mədəniyyətlə də sıx bağlıdır. O cümlədən mu-



zeylərdə bu sahə ilə bağlı eksponatlar qorunur. Milli Azərbaycan Tarixi Muzeyinin fondu da bu baxımdan çox zəngindir.

*davamı səh. 6-da*




## Sankt-Peterburq Aleksandrinski Teatrı Bakıda qonaqdır

*səh. 2*



## Bölgələrdə Milli Musiqi Günü tədbirləri

*səh. 4*

# Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Ermənistan Respublikası 1990-cı illərin əvvəllərindən başlayaraq Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin tələblərini kobud şəkildə pozaraq Azərbaycan Respublikasına qarşı işğalçılıq siyasəti həyata keçirmiş və hərbi gücdən istifadə edərək ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizini işğal etmişdir. Ermənistanda və işğal olunmuş Azərbaycan torpaqlarında azərbaycanlılara qarşı etnik təmizləmə aparılmış, insanlıq əleyhinə cinayətlər və hərbi cinayətlər nəticəsində şəhər və kəndlərimiz viran edilmiş, ölkəmizin təbii resursları talan olunmuş, dövrümüzün ən dəhşətli faciələrindən olan Xocalı soyqırımı törədilmişdir.

Ermənistanın yeni işğalçılıq planlarına, növbəti hərbi təcavüz cəhdinə və ardıcıl təxribatlarına cavab olaraq 2020-ci il sentyabrın 27-də başlamış 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusunu darmadağın etmiş və tarixi Zəfər qazanmışdır. Azərbaycan öz torpaqlarını 30 illik işğaldan azad edərək ərazi bütövlüyünün bərpasına və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinə nail olmuşdur.

2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərksilah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror əməliyyatına başlanmışdır. Cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmişdir. Beləliklə, növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilmişdir. Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır.

Hər bir xalq üçün öz taleyinə sahib olmaq, müstəqil dövlətini yaradaraq inkişaf etdirmək onun ən böyük nailiyyətidir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməmişdir. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 2023-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının bütün ərazisində qanunun aliliyinin təmin olunduğunu və Azərbaycan Respublikasının dövlət suverenliyinin bərpa edildiyini nəzərə alaraq qərara alıram:

**1.** Hər il sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü kimi qeyd edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 19 sentyabr 2024-cü il**

# Niyazinin Mənzil-Muzeyi 30 yaşını qeyd etdi

Sentyabrın 18-i – Üzeyir Hacıbəylinin adı ilə mədəniyyət təqvimimizə düşən Milli Musiqi Günü həm də Hacıbəyovlar nəslinin nümayəndəsi, görkəmli dirijor və bəstəkar Niyazinin paytaxtdakı mənzil-muzeyinin "ad günü"dür.



Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin filialı olan muzeyin 30 yaşı tamam olur. Sentyabrın 19-da bu münasibətlə tədbir keçirildi.

Əvvəlcə qonaqlar muzeyin tarixindən bəhs edən, əməkdaşlar tərəfindən yeni hazırlanmış fotosərgi ilə tanış oldular.

Yubiley tədbiri Ümummilli lider Heydər Əliyevin 1994-cü il sentyabrın 18-də mənzil-muzeyin açılışındakı çıxışını əks etdirən videomaterialın nümayişi ilə başladı.

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru Əməkdar mədəniyyət işçisi Alla Bayramova muzeyin yaradılmasının milli mədəniyyətimizin, musiqi irsimizin gələcək nəsillərə çatdırılması baxımından əhəmiyyətini vurğuladı.

Mənzil-muzeyin direktoru Əməkdar mədəniyyət işçisi Rza Bayramov yubileylə əlaqədar görülən işlərdən, ekspozisiyaya daxil olan yeni eksponatlar və nəşrlərdən söz açdı. Bildirdi ki, muzeydə hazırda 6500-dən artıq eksponat qorunub saxlanılır. Onların arasında maestronun not əlyazmaları, şəxsi kitabları, fotoları, geyimləri və təltifləri var. Muzeydə müxtəlif sənəd və afişalar, təsviri sənət nümunələri, Niyazinin bəstəkar həmkarlarının əlyazmaları və suvenirlər də nümayiş olunur.

Hər iki çıxış muzeyin kolleksiyaları əsasında hazırlanmış slaydşou ilə müşayiət olundu.

Sonra Azərbaycan Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Adil Atakişiyev muzeyin rəhbərliyinə və əməkdaşlarına komitə adından fəxri fərman və pul mükafatı təqdim etdi.

"Dədə Qorqud" Milli Fondunun prezidenti Eldar İsmayılov, Dünya Azərbaycanlılarının Həmrəyliyi Cəmiyyətinin sədri Tofiq Əlizadə, "Carçı" jurnalının baş redaktoru Gülnarə Əmiruliyeva, Bülbülün Ev-Muzeyinin direktoru Fərqanə Cabbarova, Niyazinin qohumu Sahib Qədimov görkəmli sənətkarın yaradıcılığı və musiqi mədəniyyətimizə töhfələrindən söz açdılar, muzeyin kollektivinə uğurlar arzuladılar.

Bədii hissədə Akademik Opera və Balet Teatrının artistləri Mirəli Sarızadə, Gülzar Ramizli, Məhəbbət Səfərov, Səma Həmzəyeva, Əməkdar artist Elxan Mansurov, Nüşabə İsa, Akademik Musiqili Teatrın solisti Eleanora Mustafayeva, Fidan Əliyeva, Bakı Musiqi Akademiyasının baş müəllimi Lalə Muxtarova, beynəlxalq müsabiqələr laureatı Nuranə Qurbanova, Milli Konservatoriya nəzdində Musiqi Kollecinin müəllimi Abbas Abdullazadənin ifalarında Üzeyir Hacıbəyli, Niyazi və başqa Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət konsert proqramı təqdim olundu.

Tədbir iştirakçılarına 30 illik münasibətilə təkrar nəşr edilmiş "Niyazinin Mənzil-Muzeyi" bukleti (Azərbaycan, rus və ingilis dillərində) hədiyyə edildi.

**Lalə Azəri**

# Külli-Qarabağda abi-həyat – Vətən torpağı dirçəlir

## Ağdamda, Şuşada, Xankəndidə açılışlar və təməlqoyma mərasimləri

*əvvəli səh. 1-də*

Prezident İlham Əliyev və oğlu Heydər Əliyev sentyabrın 19-da Ağdam rayonunun Eyvazxanbəyli kəndinin təməlqoyma mərasimində iştirak ediblər.

Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına kənddə görüləcək işlər barədə məlumat verib.

Baş plana əsasən, bu kənd ərazi vahidinə görə bir-birinə yaxın olan Şişpaqplar, Kosalar və Eyvazxanbəyli kəndləri ilə birlikdə layihələndirilib.



Eyvazxanbəyli kəndində 1091 fərdi evin inşası (ümumilikdə 4038 nəfərin məskunlaşdırılması) planlaşdırılıb. Birinci mərhələdə 1563 nəfərin köçürülməsi üçün 427 fərdi evin inşası nəzərdə tutulur.

***

Prezident İlham Əliyev Ağdam rayonunun Kəngərli və Xıdırlı kəndlərində aparılan bərpa işləri ilə tanış olub. Hər iki kəndin təməli dövlətimizin başçısı tərəfindən 2022-ci il oktyabrın 4-də qoyulub.

Qeyd edilib ki, Ağdam şəhərindən 6 km məsafədə yerləşən Kəngərli kəndində 2544 nəfərin (632 ailə) məskunlaşdırılması planlaşdırılıb. Birinci mərhələdə 1279 nəfərin köçürülməsi üçün 292 fərdi ev inşa edilir.

Ağdam şəhərinin mərkəzindən 3 km məsafədə yerləşən Xıdırlı kəndində isə 5093 nəfərin məskunlaşdırılması planlaşdırılıb. Birinci mərhələdə kəndə 2951 nəfərin köçürülməsi üçün 719 fərdi evin tikilməsi planlaşdırılır.

***

Dövlətimizin başçısı sentyabrın 19-da Ağdam şəhərində "İmarət" stadionunun təməlini qoyub.

Gənclər və idman naziri Fərid Qayıbov stadionda yaradılacaq şərait barədə məlumat verib. Bildirilib ki, stadion UEFA-nın 4-cü kateqoriya tələblərinə uyğun inşa ediləcək və 11 min 700 tamaşaçı tutacaq.

***

Prezident İlham Əliyev Ağdam şəhərində "Aghdam City Hotel"in açılışında iştirak edib.

"Oskad" şirkətinin idarə heyətinin sədri Oğuz Kadıoğlu dövlətimizin başçısına hoteldə yaradılan şərait barədə məlumat verib. Beşmərtəbəli binada 130 otaq-nömrə var.

***

Dövlətimizin başçısı Ağdam Sənaye Parkında görülən işlərlə də tanış olub, yeni zavodların açılış mərasimlərində iştirak edib.

İqtisadiyyat naziri Mikayıl Cabbarov sənaye parkında görülən işlər barədə məlumat verib.

Prezident Ağdam-Əsgəran-Xocalı-Xankəndi avtomobil yolunda görülən işlərlə də tanış olub.

***

Prezident İlham Əliyev sentyabrın 19-da Xankəndi şəhərində Nizami Gəncəvi adına 4 nömrəli tam orta məktəbin təmirdən sonra açılışında iştirak edib.

Elm və təhsil naziri Emin Əmrullayev məktəbdə yaradılan şərait barədə məlumat verib. Bildirilib ki, 624 şagird yerlik tam orta məktəbin əsaslı təmirinə bu ilin mayında başlanılıb.

Dövlətimizin başçısı Xankəndi şəhərində 1 nömrəli körpələr evi-uşaq bağçasının təmirdən sonra açılışında da iştirak edib. Məktəbəqədər təhsil müəssisəsi 80 yerlikdir.

***



Prezident İlham Əliyev Xankəndi Dövlət Dram Teatrının binasında görüləcək işlərlə tanış olub.

Dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verilib. Bildirilib ki, Xankəndi Dövlət Dram Teatrının binası 1932-ci ildə Azərbaycan Hökuməti tərəfindən tikilib istifadəyə verilib. 1949-cu ildə binanın konstruksiyasına müəyyən əlavələr olunub. Bina XX əsr abidəsi kimi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli qərarı ilə "Yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı"na daxil edilib.

Mədəniyyət Nazirliyinin və digər qurumların mütəxəssisləri tərəfindən 2023-cü ilin noyabrında Xankəndi şəhərində yerləşən mədəniyyət müəssisələrinin monitorinqi aparılan zaman teatrın binasına da baxış keçirilib. İşğal dövründə bina istismar üçün yararsız vəziyyətə salındığına görə əsaslı təmirə ehtiyacı var.

***

Prezident İlham Əliyev Xankəndi şəhərində "Bulud" hotelində aparılan təmir-bərpa işləri və şəhərin Zəfər meydanında Konqres Mərkəzinin tikintisi ilə də tanış olub.

# Rus teatrının Bakıdakı "Evlənmə"si

Rusiyanın Sankt-Peterburq şəhərindəki Aleksandrinski Teatrı Bakıda qonaqdır. Sentyabrın 19-da Akademik Milli Dram Teatrında Aleksandrinski Teatrının "Evlənmə" tamaşası nümayiş olundu.



Nümayişdən öncə qonaq teatrın direktoru Aleksandr Maliç, bədii rəhbəri Nikita Kobelev, Akademik Milli Dram Teatrının direktoru Əməkdar mədəniyyət işçisi İlham Əsgərov və teatrın baş rejissoru, Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadənin iştirakı ilə mətbuat konfransı oldu.

Diqqətə çatdırıldı ki, səfər iki teatr arasında ötən il imzalanan memorandum əsasında gerçəkləşir. Sentyabrın əvvəlində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı Sankt-Peterburqda qonaq olmuş, yeni hazırlanan "İblis və..." tamaşasını göstərmişdi.

Yaranan əməkdaşlığı yüksək qiymətləndirən hər iki teatrın rəhbər şəxsləri layihənin Azərbaycan və Rusiya Mədəniyyət nazirliklərinin dəstəyi ilə həyata keçirildiyini diqqətə çatdırdılar. Bildirdilər ki, iki teatr arasında qurulan əməkdaşlıq bundan sonra da davam edəcək, yeni uğurları ilə Rusiya və Azərbaycan arasında mədəni əlaqələrə öz töhfəsini verəcək.

Sonra rus teatrı təmsilçilərinin klassik əsərə maraqlı yozumu təqdim olundu. Nikolay Qoqolun eyniadlı əsəri əsasında hazırlanan "Evlənmə" tamaşasının quruluşçu rejissoru Rusiyanın Xalq artisti Valeri Fokindir. 2008-ci ildə, Qoqolun 200 illik yubileyi ərəfəsində hazırlanan tamaşa "Ən yaxşı rejissor işi" və "Ən yaxşı rəssam işi" nominasiyalarında Rusiyanın milli teatr mükafatı – "Qızıl maska"ya layiq görülüb.

Alqışlarla qarşılanan nümayişdən sonra Aleksandrinski Teatrına Akademik Milli Dram Teatrı tərəfindən təsis olunmuş "Milli teatr mükafatı" verildi. Teatrın direktoru İlham Əsgərov mükafatı həmkarı Aleksandr Maliça təqdim etdi.

Həmçinin "Evlənmə" tamaşası Azərbaycan Teatr Xadimləri İttifaqının "Qızıl dərviş" mükafatı ilə təltif olundu. Mükafatı Teatr Xadimləri İttifaqının sədri Xalq artisti, laureatı Hacı İsmayılov Aleksandrinski Teatrının bədii rəhbəri Nikita Kobelevə təqdim etdi.

Qeyd edək ki, rus teatrının Bakı səhnəsində "Evlənmə"si sentyabrın 20-də də göstəriləcək. Tamaşa haqqında ətraflı növbəti sayımızda.

**Həmidə Nizamiqızı**

# Miras: öyrənmək, yaşatmaq, artırmaq

## Üzeyir Hacıbəyli festivalı çərçivəsində beynəlxalq simpozium keçirilir

Sentyabrın 18-də, Milli Musiqi Günündə Azərbaycan Milli Konservatoriyasında (AMK) UNESCO nəzdində Ənənəvi Musiqi və Rəqs üzrə Beynəlxalq Şuranın (ICTMD) "Türk dünyasında musiqi və rəqs" və "Qlobal musiqi tarixi" araşdırma qruplarının "Qədim mirasın əks-sədaları: musiqi və rəqs irsinin öyrənilməsi" adlı birgə simpoziumu işə başladı.

Üzeyir Hacıbəyli XVI Beynəlxalq Musiqi Festivalı çərçivəsində təşkil olunan simpozium ICTMD, AMK, Mədəniyyət Nazirliyi, Bakı Xoreoqrafiya Akademiyası və Türk Mədəniyyəti və İrsi Fondunun birgə layihəsi olaraq keçirilir.

Tədbirin açılışında AMK-nın rektoru Xalq artisti Siyavuş Kərimi və mədəniyyət nazirinin müavini Murad Hüseynov çıxış etdilər. Çıxışçılar müxtəlif ölkələrdən ekspertləri bir araya gətirən simpoziumun işinə uğurlar arzuladılar.

***

Simpoziumun birinci plenar iclasında ilk məruzəçi Salva əl-Şavan Kastelo-Branko (Portuqaliya) "Postkolonial dünyanın siyasəti və estetikası: Qahirədə ərəb musiqi irsi" mövzusunda çıxış etdi.



Məruzəçi ənənəvi ərəb musiqisini tarixi baxımdan araşdıraraq gəldiyi nəticələrə öz çıxışında geniş yer vermişdi. O, araşdırmasında ərəb milli musiqisinin inkişaf mərhələləri, Misir dövlətinin milli musiqi irsinin qorunması barədə gördüyü işlərdən danışdı. 1869 və 1988-ci ildə Qahirədə tikilmiş opera teatrı binalarının imkanlarını müqayisə etdi.

Tədqiqatçı Gültəkin Şamilli "Azərbaycan qlobal tarixin xəritəsində: musiqi və rəqs sərhədləri üzərindən diskurs" mövzusunda, musiqişünas Nigar Axundova isə Şuşanın musiqi sülalələri haqqında məruzələrlə çıxış etdilər.

Nigar Axundova məruzəsində Şuşadan Azərbaycana, Azərbaycandan dünyaya pərvazlanan musiqiçi sülalələr haqda danışdı. Bildirdi ki, Hacıbəylilər və Bədəlbəylilər kimi görkəmli musiqiçi nəsillərilə bərabər, Şuşada doğulan Sadıqcan, Məşədi Cəmil Əmirov, Ağalarovlar, Bülbül, Adıgözəlovlar, Bağırovlar kimi görkəmli musiqiçilərin artıq üçüncü, dördüncü nəsli Azərbaycan musiqisini dünyada tanıdırlar.

ABŞ-dan gələn Azərbaycan kökənli tədqiqatçı Aleksandria Sultan Von Bruseldorff "Nə üçün ICTMD daxilində musiqi ənənələri üzrə səs araşdırmaları tədqiqat qrupunu yaratmaq lazımdır?" adlı məruzəsində tibbin son nailiyyətləri ilə silahlanmış foniatriya sahəsində araşdırmalar aparılmasının vacibliyini vurğuladı.

***

Sentyabrın 19-da simpozium işini üç plenar sessiya ilə davam etdirdi.

Milli Konservatoriyanın Fikrət Əmirov zalında "Qloballaşan dünya şəraitində Qərb və Şərqin tarixi diskurslarının görüşü" bölməsi, Bakı zalında "Musiqi və rəqs ənənələrinin qorunması və transformasiyası problemləri", Qarabağ zalında isə "Musiqi terapiyası: XXI əsrdə problemlər və perspektivləri" mövzusunda məruzələr dinlənildi.

Məruzələrin əksəriyyəti Türk dünyasının görkəmli simaları, onların milli musiqi mədəniyyətinin inkişafından ötrü gördükləri işlərin təhlilinə və tanıdılmasına həsr olunmuşdu. Uyğur musiqisinin tatar incisi Sənuğər Tursun (Çindən simpoziuma onlayn qoşulan Xiao Mei), türkmən dütar ifaçısı Purli Saryevin milli musiqidəki xidmətləri (Türkmənistandan onlayn qoşulan Cəmilə Qurbanova) barədə verilən bilgilər gerçəkdən çox qiymətli idi.

Tatarıstan, Qazaxıstan, Özbəkistan, Azərbaycan, Qırğızıstan musiqişünaslarının məruzələri də maraqla dinlənildi.

Çıxışlardan sonra araşdırmaçılar məruzə ilə bağlı suallar verir, öz fikirlərini bildirirdilər.

Simpozium sentyabrın 22-dək davam edəcək.

**Gülcahan**

# 18 sentyabr – Üzeyir adı ilə şərəflənən gün



Sentyabrın 18-də adını Azərbaycanın musiqi mədəniyyəti salnaməsinə qızıl hərflərlə yazdırmış dahi bəstəkar, musiqişünas, pedaqoq, publisist, ictimai xadim Üzeyir Hacıbəylinin (1885–1948) anadan olmasının 139-cu ildönümü tamam oldu. 1995-ci ildə Ulu öndər Heydər Əliyev Üzeyir Hacıbəylinin "Azərbaycan musiqi sənətinin inkişafında misilsiz xidmətlərini nəzərə alaraq və böyük sənətkara xalq ehtiramını və məhəbbətini təcəssüm etdirmək məqsədilə" bu tarixin "Üzeyir musiqi günü" kimi qeyd olunması haqqında fərman imzalayıb.

### Dahi bəstəkarın məzarı önündə

Mədəniyyət tariximizin bu əlamətdar gününün tədbirlər silsiləsi ənənəvi olaraq I Fəxri xiyabanda Üzeyir bəyin məzarının ziyarət olunması ilə başlanıb. Mərasimdə Mədəniyyət Nazirliyinin rəsmiləri, mədəniyyət xadimləri iştirak ediblər. Dahi bəstəkarın məzarı üstünə əklil qoyulub, tər çiçəklər düzülüb.

Mədəniyyət nazirinin müavini Murad Hüseynov mərasimə toplaşanları milli musiqimizin bayramı münasibətilə təbrik edib. Bildirib ki, hər il olduğu kimi, bu il də Üzeyir Hacıbəylinin doğum günü – Milli Musiqi Günü ilə bağlı ölkəmizdə silsilə tədbirlər keçirilir, bəstəkarın mədəniyyətimiz qarşısında misilsiz xidmətləri minnətdarlıqla yada salınır. Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkil etdiyi ənənəvi Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalının bu il də zəngin proqramı var.

Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru Xalq artisti Fərhad Bədəlbəyli xalqımızın ölməz sənətkarları arasında Üzeyir Hacıbəylinin xüsusi yeri olduğunu bildirib: "Üzeyir Hacıbəyli elə bir şəxsiyyətdir ki, məhz onun sayəsində Azərbaycan musiqisində tarixi bir dövr başlandı, klassik musiqi sənətimizin təməli qoyuldu, yeni musiqi janrları yarandı. O, milli musiqimizi dünya səviyyəsinə qaldıra bildi".

Azərbaycan Milli Konservatoriyasının rektoru Xalq artisti Siyavuş Kərimi də Üzeyir bəyin ölməz yaradıcılığından söz açıb. Deyib ki, onun əsasını qoyduğu təhsil sistemi ilə Azərbaycanın musiqi mədəniyyətinə böyük sənətkarlar bəxş olunub.

Üzeyir Hacıbəylinin Bakıdakı ev-muzeyinin direktoru Xalq artisti Sərdar Fərəcov, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru professor Ceyran Mahmudova və başqa çıxış edənlər böyük şəxsiyyətin mədəniyyət salnaməmizdə silinməz iz qoyan çoxşaxəli fəaliyyətindən bəhs ediblər.

Çıxışlardan sonra mərasim iştirakçıları I Fəxri xiyabanda uyuyan Azərbaycan musiqisinin korifeylərindən Qara Qarayev, Fikrət Əmirov, Bülbül, Rəşid Behbudov, Niyazi və Müslüm Maqomayevin də məzarlarını ziyarət ediblər.





Mərasim iştirakçıları Ümummilli lider, mədəniyyətimizin böyük hamisi Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini ehtiramla anaraq məzarları üzərinə tər çiçək dəstələri düzüblər.

### Milli Konservatoriyada

Milli Musiqi Gününün növbəti ənənəvi tədbiri Azərbaycan Milli Konservatoriyasında (AMK) keçirilib.

Konservatoriyanın rektoru Xalq artisti Siyavuş Kərimi çıxışında Üzeyir Hacıbəylinin adı ilə bağlı olan əlamətdar günün əhəmiyyətindən, dahi bəstəkarın Azərbaycan musiqisinin inkişafında göstərdiyi xidmətlərdən danışıb: "Biz hər zaman Üzeyir bəyin xatirəsini əziz tutacaq, musiqimizin inkişafındakı xidmətlərini minnətdarlıqla qeyd edəcəyik. Musiqi bayramımız mübarək olsun".

Bakı Musiqi Akademiyasının rektoru Xalq artisti Fərhad Bədəlbəyli də Üzeyir Hacıbəyli kimi dahisi olan xalqın xoşbəxt xalq olduğunu deyib.

Sonra musiqi proqramı təqdim edilib. AMK-nın tələbələrindən ibarət xalq çalğı alətləri orkestrinin müşayiəti ilə xanəndələr Xəyal Hüseynov, Gülzar Fərəcova və Güllü Muradovanın ifasında "Qarabağ şikəstəsi" səsləndirilib.

### Bakı Musiqi Akademiyasında

Milli Musiqi Gününün daha bir tədbiri Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında (BMA) gerçəkləşib.

BMA-nın rektoru Fərhad Bədəlbəyli çıxış edərək bildirib ki, bu gün musiqi xadimlərmiz Üzeyir bəyin açdığı sənət yolu ilə addımlayırlar: "Xoşbəxtik ki, onun adını daşıyan təhsil ocağında çalışırıq. Məzunlarımız bütün dünyada uğurla çıxış edirlər. Bütün uğurlarımız Üzeyir bəyin adı ilə bağlıdır".

BMA-nın kafedra müdiri Xalq artisti Xuraman Qasımova Üzeyir Hacıbəylinin ata yurdu azad Şuşada böyük festivalların keçirildiyini söyləyib: "Bizə bu xoşbəxtliyi yaşatdığına görə Prezident İlham Əliyevə təşəkkür edirik".

Mədəniyyət nazirinin müavini Murad Hüseynov dahi bəstəkarın musiqi mədəniyyətimizin tarixindəki rolundan danışıb. Bildirib ki, Üzeyir Hacıbəyli musiqisinin şöhrəti bir əsrdən çoxdur ki, dünyanı dolaşır, mötəbər səhnələrdə səsləndirilir, rəğbətlə qarşılanır.

BMA-nın kafedra müdiri filologiya elmləri doktoru, professor Tərlan Quliyev bu il anadan olmasının 530 illiyi qeyd edilən dahi şair və mütəfəkkir Məhəmməd Füzulinin yaradıcılığından nümunə səsləndirib.

Sonra BMA-nın qarşısında Üzeyir bəyin abidəsi ətrafında konsert proqramı təqdim olunub.

Müdafiə Nazirliyinin Əlahiddə Nümunəvi Hərbi Orkestri (bədii rəhbər və dirijor: Əməkdar incəsənət xadimi, polkovnik Rüfət Axundzadə), Azərbaycan Dövlət Xor Kapellası (bədii rəhbər: Xalq artisti Gülbacı İmanova), Əməkdar artist Xəyyam Mustafazadə, solistlər Aynur İsgəndərli, Kənan Qədimov çıxış ediblər.

Ü.Hacıbəylinin "Koroğlu" operasından "Rəqs", "Ey Vətən", M.Maqomayevin "Odlar yurdu", F.Bədəlbəylinin "Anamız Azərbaycan", R.Axundzadənin "Qələbə marşı" əsərləri və "Heyratı" zərbi muğamı səsləndirilib.

**N.Məmmədli**

# Üzeyir Hacıbəyli festivalı 10 ölkə musiqiçilərini bir araya gətirib

*əvvəli səh. 1-də*

Nazir müavini söylədi ki, ənənəvi festivalın ən önəmli məqamı isə 2021-ci ildən onun xəritəsinə mədəniyyət paytaxtımız, Üzeyir bəyin doğma yurdu Şuşa şəhərinin də əlavə olunmasıdır: "Builki festivalda da Şuşa şəhərində tədbirlər nəzərdə tutulub. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı kollektivinin ifasında Üzeyir Hacıbəylinin yaratdığı ilk muğam operası – "Leyli və Məcnun"un tamaşası nümayiş olunacaq. Şuşada doğulan görkəmli bəstəkarımız, Xalq artisti Süleyman Ələsgərovun 100 illiyinə həsr olunmuş konsert də keçiriləcək. Əminik ki, Üzeyir Hacıbəyli XVI Beynəlxalq Musiqi Festivalı da musiqisevərlərin zövqünü oxşayacaq, qəlblərində silinməz izlər qoyacaq. Üzeyir Hacıbəylinin sənəti tarixi-mədəni irsimizin ayrılmaz bir parçası kimi daim öz dəyərini qoruyub saxlayacaq".







***

Daha sonra konsert proqramı təqdim olundu.

Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri (bədii rəhbər və baş dirijor: Əməkdar artist Fuad İbrahimov), Azərbaycan Dövlət Xor Kapellası (bədii rəhbər: Xalq artisti Gülbacı İmanova), Xalq artisti Ülviyyə Hacıbəyova (piano), Əməkdar artistlər Ramil Qasımov (tenor), İnarə Babayeva (soprano), respublika və beynəlxalq müsabiqələr laureatı Mahir Tağızadə (bariton) çıxış etdilər.

Proqramda Ü.Hacıbəylinin "Koroğlu" operasından "Uvertüra", "Firuzə" operasından "Firuzənin ariyası", xor və orkestr üçün "Bahar nəğməsi", bariton, xor və orkestr üçün "Kantata", "Milli marş", S.Ələsgərovun səs və orkestr üçün "Eşq olsun sənətkara" balladası, M.Mirzəyevin "Böyük ustada ithaf" poeması, İ.Hacıbəyovun piano və orkestr üçün "Cəngi" rapsodiyası, Ə.Cavidin Üzeyir bəyə ithaf olunmuş 9 variasiya (orkestr üçün işləyəni Ayaz Qəmbərli), F.Əmirovun "Üzeyir Hacıbəyliyə ithaf", V.Allahverdiyevin "Aşıqsayağı" (Üzeyir bəyə ithaf) və S.Hacıbəyovun "Karvan" simfonik lövhəsi səsləndirildi.

Möhtəşəm gecədə ifa olunan hər bir əsər adını Azərbaycanın mədəniyyət salnaməsinə qızıl hərflərlə yazdıran şəxsiyyətin əziz xatirəsinə ehtiramın ifadəsi kimi yaddaşlara köçdü. Bütün çıxışlar gurultulu alqışlarla qarşılandı.

**Nurəddin**

# Doğum günü öz ocağında da qeyd olundu

Sentyabrın 18-də Milli Musiqi Günü və Üzeyir Hacıbəylinin anadan olmasının 139-cu ildönümü münasibətilə dahi bəstəkarın ev-muzeyində tədbir keçirildi.





Musiqişünasların, ziyalıların iştirak etdiyi tədbirdə əvvəlcə Azərbaycana yeni gətirilən "termenvoks" adlı elektromusiqi alətində Üzeyir Hacıbəylinin musiqi müəllifi olduğu himnimiz səsləndirildi.

Muzeyin direktoru Xalq artisti Sərdar Fərəcov çıxış edərək Üzeyir bəyin zəngin yaradıcılığından danışdı. O, 18 sentyabrın görkəmli Azərbaycan bəstəkarı Müslüm Maqomayevin də doğum günü olduğunu deyərək milli musiqimizin inkişafında və təbliğində Üzeyir bəyin böyük məsləkdaşını yad etdi.

Xalq artisti aktyor Əli Nur hələ tələbəlik illərində Üzeyir bəy haqqında eşitdiyi dəyərli xatirəni yazılı şəkildə muzeyə hədiyyə etdi.

Yazıçı-dramaturq Əmir Pəhləvan, qocaman jurnalist Firuz Haşımlı, şairə Kəmalə Abıyeva və başqaları Üzeyir Hacıbəylinin musiqi xadimi kimi misilsiz xidmətləri ilə yanaşı, onun publisistikasından, ədəbi yaradıcılığından söz açdılar. Bildirildi ki, dahi bəstəkar şəxsiyyət və cəsarət nümunəsi kimi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaq.

Əmir Pəhləvanın Üzeyir bəyə həsr etdiyi "Millətin himni sən, bayrağı sənsən!" şeiri alqışlarla qarşılandı.

Çıxışlardan sonra musiqi nömrələri təqdim olundu.

Ş.Ələkbərova adına 20 nömrəli, T.Quliyev adına 12 nömrəli musiqi məktəblərinin şagirdləri, Azərbaycan Milli Konservatoriyası və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti tələbələrinin ifasında Üzeyir bəyin "Arazbarı", "Sevgili canan" və s. əsərləri səsləndirildi. M.Maqomayevin "Şah İsmayıl" operasından Aslan şahın ariyası, bəstəkar İlhamə Adilqızının "Üzeyir dünyası" adlı mahnısı və digər bəstəkarların əsərlərinin yer aldığı proqram alqışlarla qarşılandı.

Sonda bəstəkarın ev-muzeyinə təqdim edilən termenvoks aləti barədə qısa məlumat verək. 1918-ci ildə rus ixtiraçısı Lev Termen tərəfindən yaradılmış elektromusiqi alətinin əsas xüsusiyyəti onu çalarkən ifaçının alətlə təmasına ehtiyac olmamasıdır. İxtiraçısı tərəfindən 1928-ci ildə patentləşdirilən alətə "ezerfon" da deyilir. İfa iki metal antena sayəsində təmin edilir. Bu antenalar aləti çalan adamın əllərinin mövqeyinə görə səs çıxarır. Bir əllə titrəyiş dalğaları göndərilir, digər əllə isə səsin şiddəti müəyyən edilir. Elektrik siqnalları termenvoks üzərində yaradılır və səs dinamiklərinə göndərilir.

**Lalə Azəri**

# Rostropoviçlərin ev-muzeyində klassik musiqi konserti

18 sentyabr – Milli Musiqi Günü münasibətilə Leopold və Mstislav Rostropoviçlərin paytaxtdakı ev-muzeyində klassik musiqi konserti olub.



Muzeyin icraçı rəhbəri Günay Əliyeva görkəmli violonçelist Leopold Rostropoviç və dahi bəstəkarımız Üzeyir Hacıbəylinin yaxın dostluq və yaradıcılıq əlaqələrindən bəhs edib.

Sonra tədbir konsert proqramı ilə davam edib.

Proqramda Azərbaycan Milli Konservatoriyası tərkibində fəaliyyət göstərən İncəsənət Gimnaziyasının şagirdləri Üzeyir Hacıbəylinin əsərlərini ifa ediblər.

Gimnaziyanın rəhbəri Aytən Əhmədova diqqətə çatdırıb ki, konsertdə çıxış edən şagirdlər ölkəmizi beynəlxalq müsabiqələrdə də uğurla təmsil edirlər.

Günay Əliyeva gənc istedadlara qazandıqları uğurlara görə təbrik lərini çatdırıb, gözəl ifalarına görə onlara muzey adından təşəkkürnamələr təqdim edib.

# 100 dəfə "O olmasın, bu olsun"

Azərbaycan Dövlət Akademik Musiqili Teatrı yeni mövsümə sentyabrın 18-də "Üzeyir Hacıbəyli həftəsi" layihəsi çərçivəsində "O olmasın, bu olsun" tamaşasının 100-cü nümayişi ilə başlayıb.



Tamaşadan əvvəl səhnəyə çıxan teatrın direktoru Əməkdar incəsənət xadimi Əliqismət Lalayev Milli Musiqi Günü, yeni mövsümün açılışı və tamaşanın yubileyi münasibətilə sənətsevərləri təbrik edib. Direktor "O olmasın, bu olsun"un bu teatrda sonuncu quruluşundan keçən 26 ildə tamaşada rol almış mərhum sənətkarların da adlarını ehtiramla yad edib.

Tamaşanın quruluşçu rejissoru Xalq artisti Cənnət Səlimova da Üzeyir dühasının Azərbaycan mədəniyyəti tarixindəki önəmli yerindən danışıb, onun Musiqili Teatrın repertuarını zənginləşdirən əsərləri sırasında özünün də quruluş verdiyi tamaşanın olmasından qürur duyduğunu bildirib. Məşədi İbad obrazını Xalq artistləri Hacıbaba Bağırov və Ramiz Məmmədovdan sonra Əməkdar artist Şövqi Hüseynovun (2014-cü ildən) da məharətlə canlandırdığını vurğulayan rejissor teatrın kollektivini tamaşanın yubileyi münasibətilə təbrik edib.

"O olmasın, bu olsun"un 100-cü tamaşasında Xalq artisti Pərviz Məmmədrzayev, Əməkdar artistlər Şövqi Hüseynov, Nadir Xasiyev, Nahidə Orucova, Əzizağa Əzizov, Əkbər Əlizadə, aktyorlar Möylə Mirzəliyev, Əliməmməd Novruzov, Səmədzadə Xasiyev, Hüseyn Əlili, Aydan Həsənova, Elməddin Dadaşov, Telnaz Hüseynova və başqaları çıxış ediblər.

# "Qəlbimdəki şair" – Berlində Məhəmməd Füzulinin yubiley gecəsi

*əvvəli səh. 1-də*

Diplomat səfirliyin təşəbbüsü ilə Füzulinin 530 illik yubileyi münasibətilə Almaniyada poçt markasının buraxıldığını da deyib.

Almaniyalı şərqşünas-alim Mixael Raynhard Hess mütəfəkkir şair Məhəmməd Füzulinin Azərbaycan, ərəb və fars dillərində qələmə aldığı əsərlərin Yaxın və Orta Şərq ölkələri ədəbiyyatına mühüm təsir göstərdiyini vurğulayıb. Əsərlərində həyata, insana dərin məhəbbət aşılayan, daim gözəllik duyğusu və ülvi ideallarla yaşamağa çağıran Füzulinin dünya klassik mütəfəkkirləri ilə eyni sırada yer aldığını qeyd edib.

Çıxışlardan sonra Almaniyada yaşayan və fəaliyyət göstərən soydaşımız Tural İsmayılovun rəhbəri olduğu "Anima Şirvani" ansamblının konserti olub. Konsertdə Azərbaycan muğamı və xalq mahnıları klassik alman və ingilis barokko musiqisi ilə vəhdət şəklində təqdim olunub. Naibə Tural və Aydın Həbibov Füzulinin şeirlərini qiraət ediblər.

Konsert alqışlarla qarşılanıb.

Sonda tədbir iştirakçılarına Azərbaycan mətbəxinin təamları təqdim olunub.

# Leyla Əliyeva Milli Qəhrəman Mübariz İbrahimovun ailəsini ziyarət edib



Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva sentyabrın 18-də Biləsuvar rayonuna səfəri zamanı Əliabad kəndində Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun (1988–2010) ailəsini ziyarət edib.

Qəhrəmanın doğulduğu kənddə yaradılan ev-muzeyə baş çəkən Leyla Əliyeva burada Mübariz İbrahimovun şəxsi əşyaları, onun həyat yolunu əks etdirən eksponatlarla tanış olub.

Sonra Mübariz İbrahimovun ailəsinin yaşadığı evə gələn Leyla Əliyeva Milli Qəhrəmanın atası və anası ilə çay süfrəsi arxasında söhbət edib.

Qeyd edək ki, Azərbaycan Ordusunun giziri Mübariz İbrahimov 2010-cu il iyunun 19-da Tərtər istiqamətindəki cəbhə xəttində bir kilometrlik minalanmış sahəni təkbaşına keçərək Ermənistan işğalçı ordusunun çox sayda hərbçisini məhv edib, beş saat sürən qeyri-bərabər döyüşdə qəhrəmancasına şəhid olub.

Prezident İlham Əliyevin sərəncamı ilə Mübariz İbrahimova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

# Bilik gələcəyin açarıdır

Şirvan-Salyan RMİ-nin tabeliyində fəaliyyət göstərən musiqi və incəsənət məktəblərində 15 sentyabr – Bilik Gününə həsr olunan tədbirlər keçirilib. Tədbirlərdə yuxarı sinif məktəblilər birinci sinif şagirdlərini rəngarəng musiqi nömrələri ilə sevindiriblər.



Xudat şəhər Uşaq musiqi məktəbində "Uşaqlar bizim gələcəyimizdir" adlı tədbir keçirilib. Şagirdlər şeirlər səsləndirib, musiqi nömrələri ilə çıxışlar ediblər.

Şəmkir rayon MKS-nin 1 saylı şəhər kitabxana filialı Əhməd Cavad adına Mədəniyyət Mərkəzində "Təhsil bizim gələcəyimizdir" başlığı altında tədbir təşkil edib. Bilik Günü münasibətilə tərtib edilən kitab sərgisinə baxış olub.

Tovuz Dövlət Rəsm Qalereyasında rəsm dərnəyi üzvlərinin əl işlərindən ibarət "Bilik gələcəyin açarıdır" adlı rəsm sərgisi keçirilib. Sərgidə mövzunu əhatə edən rəsmlər nümayiş olunub.

# Şəhidlər unudulmur

Ağstafa Rayon Tarix-Diyarşünaslıq Muzeyi, Ağstafa şəhər 1 və 2 saylı folklor klublarının əməkdaşları Vətən müharibəsi şəhidi Nihad Abdullayevin ailəsini ziyarət ediblər.



Nihad Abdullayev 2002-ci il aprelin 13-də Ağstafa rayonunda anadan olub. Vətən müharibəsi zamanı Füzuli və Xocavəndin azadlığı uğrunda döyüşlərdə iştirak edib. 2020-ci il noyabrın 9-da Xocavənd rayonu ərazisində şəhid olub, Ağstafa Şəhidlər xiyabanında torpağa tapşırılıb. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

# "Yaşıl kəndim" – ucqar eldə konsert

Ağstafa Rayon İcra Hakimiyyəti və Qazax-Tovuz RMİ tərəfindən "Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar hazırlanan "Yaşıl kəndim" layihəsi çərçivəsində Ağstafanın Gürcüstanla həmsərhəd Sadıqlı kəndində konsert proqramı təşkil edilib.



Tədbirdə Ağstafa RİH-in başçısı Seymur Orucov, Qazax-Tovuz RMİ-nin rəisi vəzifəsini icra edən Nail Məmmədov, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Konsert proqramında səsləndirilən bir-birindən şən musiqi nömrələri qəlbləri oxşayıb.

Qeyd edək ki, layihə çərçivəsində Ağstafa rayonunun digər ucqar qəsəbə və kəndlərində konsert proqramlarının təşkili nəzərdə tutulur.

# Gəncədə Özbək dili və Mədəniyyəti Mərkəzi

Gəncə şəhərində "Türk dünyasının Azərbaycan və Özbəkistan modeli" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib. Tədbir çərçivəsində AMEA-nın Gəncə Bölməsində Əlişir Nəvai adına Özbək dili və Mədəniyyəti Mərkəzi açılıb.



Mərkəzdə Azərbaycan və Özbəkistan xalqlarının qardaşlıq əlaqələrini əks etdirən guşələr, eksponatlar, Nizami Gəncəvi və Əlişir Nəvai yaradıcılığına aid nəşrlər təqdim olunur.

Özbəkistanda dahi Azərbaycan şairi Nizami Gəncəvinin əsərlərinin özbək dilində çap olunması, onun ardıcıllarından olan böyük özbək şairi Əlişir Nəvainin əsərlərinin Azərbaycanda tərcümə edilərək geniş oxucu kütləsinə çatdırılması hər iki ölkənin mədəni həyatında mühüm hadisə adlandırılıb.

Konfrans iştirakçıları Gəncə şəhərinin tarixi abidələri ilə də tanış olublar.

# Bölgələrdə musiqi bayramı

18 sentyabr – Milli Musiqi Günü bölgələrdəki mədəniyyət müəssisələrində silsilə tədbirlərlə qeyd olunub.

Tovuz rayon Qovlar şəhər Uşaq musiqi məktəbində "Unudulmaz sənətkar" adlı tədbir təşkil olunub. Qeyd edilib ki, dahi bəstəkar Üzeyir Hacıbəylinin doğum günü hər il ölkəmizdə milli musiqi bayramı kimi qeyd edilir. Musiqimiz, mədəniyyətimiz öz inkişafına görə Üzeyir Hacıbəyliyə borcludur. Tədbir konsert proqramı ilə davam etdirilib.

***

Şəmkir rayon Əhməd Cavad adına Mədəniyyət Mərkəzində rayon MKS ilə birgə Milli Musiqi Günü münasibətilə tədbir təşkil edilib. Tədbirdə milli musiqimizin tarixindən, Üzeyir Hacıbəylinin həyat və yaradıcılığından danışılıb. Mədəniyyətimizin dünyada tanınması və təbliğinin dövlətimiz tərəfindən daim diqqətdə saxlanıldığı vurğulanıb. Sonra təqdim olunan konsert proqramında Üzeyir Hacıbəylinin əsərlərindən parçalar səsləndirilib.

















***

Şəki-Zaqatala Regional Mədəniyyət İdarəsi (RMİ) tərəfindən Şəki, Zaqatala, Qəbələ, Balakən, Qax və Oğuz rayonlarında silsilə tədbirlər həyata keçirilib. Tədbirlərdə Üzeyir bəyin mədəniyyətimizin inkişafında misilsiz xidmətlərindən söz açılıb, həmçinin "Arşın mal alan" bədii filmi nümayiş olunub.

***

Cəlilabad şəhər Uşaq incəsənət məktəbində keçirilən tədbirdə əvvəlcə məktəbin xor kollektivinin ifasında "Leyli və Məcnun" operasından "Bu gələn yara bənzər" əsəri təqdim olunub. Sonra məktəbin şagird və müəllim kollektivi tərəfindən rəngarəng musiqi nömrələri ifa olunub.

***

Astara rayon Heydər Əliyev Mərkəzində "Milli musiqimizi yaşadan dahi bəstəkar Üzeyir Hacıbəyli" mövzusunda tədbir keçirilib. Milli Musiqi Gününün tarixi haqqında tədbir iştirakçılarına məlumat verilib. Diqqətə çatdırılıb ki, dövlətimizin mədəniyyətimizə, musiqi sənətimizə diqqət və qayğısının bariz nümunəsi kimi Üzeyir Hacıbəyli və onun irsi ilə bağlı yubileylər UNESCO-da da qeyd edilib.

***

Bəşir Səfəroğlu adına Quba rayon Mədəniyyət Mərkəzində "Üzeyir dünyası" adlı tədbir keçirilib. Əvvəlcə Üzeyir Hacıbəylinin anadan olmasının 139-cu ildönümünə həsr edilmiş kitab sərgisinə baxış olub. Bədii hissədə Quba səhnəsində ilk dəfə olaraq Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasından, "O olmasın, bu olsun" və "Arşın mal alan" operettalarından parçalar təqdim olunub, eləcə də bəstəkarın "Sənsiz", "Sevgili canan" romansları səsləndirilib.

***

Azərbaycan bəstəkarlıq məktəbinin banisi Üzeyir Hacıbəylinin doğum günü, 18 sentyabr – Milli Musiqi Günü münasibətilə Abşeron-Xızı RMİ-nin tabeliyində fəaliyyət göstərən mədəniyyət müəssisələrində də tədbirlər keçirilib. Çıxışlarda bəstəkarın həyat və yaradıcılığından bəhs olunub. Sonra tədbir iştirakçılarına Ü.Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasının ekran təcəssümü olan məşhur film nümayiş olunub.

***

Laçın şəhər 1 nömrəli Uşaq musiqi məktəbində (Bakı şəhəri) "18 sentyabr – Milli Musiqi Günü" adlı dəyirmi masa təşkil edilib. Üzeyir bəyin sənət yolundan, Azərbaycan musiqisinə verdiyi töhfələrdən bəhs olunub. Daha sonra şagirdlərin ifasında bəstəkarın əsərləri səsləndirilib.

***

Mərkəzi Aran RMİ-nin əhatə etdiyi Mingəçevir, Ağdaş və Kürdəmir rayonlarındakı mədəniyyət müəssisələrində Milli Musiqi Günü ilə bağlı tədbirlər keçirilib. Heydər Əliyev və Mədəniyyət mərkəzlərində gerçəkləşən tədbirlər zamanı musiqi mədəniyyətinə həsr olunmuş rəsm və kitab sərgiləri, musiqi məktəblərinin müəllim və şagirdlərinin ifasında dahi bəstəkarın əsərlərindən ibarət konsert proqramları təqdim edilib.

***

Biləsuvar rayon Heydər Əliyev Mərkəzi və Hacıqabul rayon Mədəniyyət Mərkəzində "Arşın mal alan" bədii filminin nümayişi təşkil olunub. Üzeyir bəyin bu ölməz əsəri tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.

***

Şirvan şəhər Uşaq musiqi məktəbi, şəhər Heydər Əliyev Mərkəzi, Mərkəzi Kitabxana, Salyan şəhər Qulu Əsgərov adına Uşaq incəsənət məktəbi, rayon Tarix-Diyarşünaslıq Muzeyi, Mədəniyyət Mərkəzi, Biləsuvar şəhər Orxan Əkbərov adına Uşaq incəsənət məktəbi, Neftçala Dövlət Rəsm Qalereyası, Neftçala Mədəniyyət Mərkəzi və Hacıqabul şəhər Uşaq musiqi məktəbində Milli Musiqi Günü münasibətilə konsertlər, tədbir və sərgilər keçirilib. Tədbirlərdə bəstəkarın operettalarından səhnəciklər oynanılıb, musiqi əsərləri ifa edilib.

***

Əlamətdar gün münasibətilə Mil-Muğan, Dağlıq Şirvan və Gəncə-Daşkəsən RMİ-ləri tabeliyində fəaliyyət göstərən mədəniyyət müəssisələrində də silsilə tədbirlər təşkil edilib.

**Hazırladı: N.Məmmədli**

# Naxçıvanda Milli Musiqi Günü qeyd olunub

Sentyabrın 18-də Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Heydər Əliyev Sarayında Naxçıvan MR-in 100 illiyi çərçivəsində Milli Musiqi Gününə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə çıxış edən NMR-in mədəniyyət nazirinin müavini Həsən Seyidov bildirib ki, Üzeyir Hacıbəyli 1908-ci ildə yazdığı "Leyli və Məcnun" əsəri ilə bütün müsəlman Şərqində opera sənətinin əsasını qoyub. Dahi bəstəkar opera və operettaları, mahnı və romansları, xor üçün əsərləri ilə musiqi xəzinəmizi zənginləşdirib.

Sonra Naxçıvan Dövlət Filarmoniyası Xalq çalğı alətləri orkestrinin konsert proqramı təqdim edilib.

Fikrət Əmirovun "Azərbaycan kapriççiosu" musiqisi ilə başlayan konsertdə Üzeyir Hacıbəylinin əsərlərindən parçalar və digər bəstəkarlarımızın əsərləri ifa edilib.

Solistlər – Naxçıvan MR-in Əməkdar artisti Zülfüqar Mahmudov, Prezident mükafatçıları Nərmin Hüseynova, İlkin Abdullayev və İsrafil Qibləliyevin ifaları alqışlarla qarşılanıb.

Konsert NMR-in Əməkdar artisti Ruhiyyə Hüseynovanın ifasında "Zəfər himni" ilə sona çatıb.

***

Naxçıvan Dövlət Universitetində (NDU) də Milli Musiqi Günü qeyd olunub. NDU-nun rektoru Elbrus İsayev bildirib ki, Üzeyir Hacıbəyli Azərbaycanda musiqişünaslığın, musiqi təhsilinin də əsasını qoyub və ömrünün sonunadək musiqi mədəniyyətinin inkişafına öz töhfəsini verib.

Vurğulanıb ki, Naxçıvan Dövlət Universitetinin Konservatoriyası və Musiqi Kollecinin kollektivlərindən ibarət yaradılan simfonik və digər geniş tərkibli orkestrlər ölkəmizdə və qardaş Türkiyənin bir sıra şəhərlərində konsert proqramları ilə çıxış edib.



Sonra bədii rəhbəri və dirijoru NDU-nun professoru, Xalq artisti Çingiz Axundov olan simfonik orkestr musiqi nömrələri ilə tamaşaçıların zövqünü oxşayıb. Üzeyir bəyin "Koroğlu" operasından "Cəngi", "Arşın mal alan" operettasından Cahan xalanın kupletləri, Telli və Vəlinin dueti, "O olmasın, bu olsun" musiqili komediyasından müqəddimə və digər əsərlər alqışlarla qarşılanıb.

# "Böyük Qayıdış" Proqramı ilin birinci yarısında necə icra olunub?

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası ilə bağlı 2024-cü ilin birinci yarısı üzrə monitorinq və qiymətləndirmə prosesini yekunlaşdırıb.

Dövlət Proqramının tədbirlər planı çərçivəsində "Ərazilərdə təhlükəsiz yaşayışın və dövlət idarəetməsinin təşkili" prioriteti üzrə 28 min hektara yaxın ərazi minalardan və partlamamış hərbi sursatlardan təmizlənib.

Hesabat dövründə ümumilikdə 767 ailə olmaqla 2904 nəfər Şuşa, Füzuli və Laçın şəhərləri, Laçın rayonunun Zabux və Sus kəndlərinə köçürülüb. Azad edilmiş ərazilər üzrə ümumilikdə 612 nəfər işlə təmin edilib.

İşğaldan azad edilmiş ərazilərdə 72,2 km elektrik verilişi xətləri çəkilib. Ərazilərdə telekommunikasiya və poçt xidmətləri infrastrukturunun qurulması məqsədilə 2 yaşayış məntəqəsində, inzibati binada poçt xidmətləri yenidən təşkil edilib. 1 ədəd radio-televiziya yayımı stansiyasının fəaliyyəti təmin edilib. Mobil telekommunikasiya xidmətlərinin təşkili üzrə 11 yeni baza stansiyası quraşdırılıb.

Respublika və yerli əhəmiyyətli avtomobil yollarının tikintisi və yenidən qurulması istiqamətində Kəlbəcər və Laçın rayonları ərazisində yol infrastrukturunun, Ağdam şəhərinin daxili yollarının, Xudafərin-Qubadlı-Laçın, Əhmədbəyli-Füzuli-Şuşa, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd, Toğanalı-Kəlbəcər-İstisu və Şuşa-Laçın avtomobil yollarının tikintisi davam etdirilib.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə azad edilmiş ərazilərdə banklar və Azərpoçt tərəfindən quraşdırılmış POS-terminalların sayı 611 ədəd təşkil edib.

Sahibkarlıq fəaliyyəti üçün əlverişli mexanizmlərin yaradılması istiqamətində regionlarda fəaliyyət göstərən sənaye parklarında 11 müəssisə rezident, 1 müəssisə isə qeyri-rezident kimi qeydiyyata alınıb. Emal sənayesi və xidmət infrastrukturunun inkişaf etdirilməsi istiqamətində, ümumilikdə, 170 layihə üzrə rezidentlərin fəaliyyəti təmin edilib.

Rəşid Behbudov adına Dövlət Mahnı Teatrı ənənəsinə uyğun olaraq, hər il 18 sentyabr – Milli Musiqi Günündə yeni konsert mövsümünün açılışını edir.

# Dövlət Mahnı Teatrı Milli Musiqi Günündə mövsümü açdı



Kollektiv teatrın binası qarşısında, açıq havada təşkil edilən konsert proqramı ilə paytaxt sakinlərinə əsl bayram əhvalı bəxş etmiş oldu.

İlk olaraq konserti izləyənlərə Milli Musiqi Günü haqqında məlumat verildi. Qeyd olundu ki, 18 sentyabr Azərbaycanın dahi bəstəkarı, musiqişünas-alim, pedaqoq, ictimai xadim Üzeyir Hacıbəylinin (1885–1948) dünyaya göz açdığı gündür.



Mədəniyyətimizin böyük himayədarı, Ümummilli lider Heydər Əliyevin Üzeyir bəyin anadan olmasının 110 illiyi münasibətilə 1995-ci ildə imzaladığı fərmana əsasən, 18 sentyabr ölkəmizdə Milli Musiqi Günü kimi qeyd edilir.

Konsert proqramında teatrın instrumental ansamblı (bədii rəhbər: Mirxalid Salayev) ilk olaraq Üzeyir Hacıbəylinin əsərlərindən ibarət popuri təqdim etdi.

Xalq artistləri Gülyaz Məmmədova, Heydər Anatollu, solistlər Aygün İsgəndərli, Fəxri Kazım Nicat, Rövşən Qəhrəmanov rəngarəng proqramla musiqisevərlərin könlünü oxşadılar. Konsert proqramı paytaxt sakinləri və şəhərimizin qonağı olan turistlər tərəfindən böyük maraqla qarşılandı.

Unudulmaz müğənni Rəşid Behbudovun heykəli qarşısında pərvazlanan Üzeyir bəyin musiqisi, xalq mahnılarımız həm də dahi bəstəkarın əziz xatirəsinə sonsuz sevginin və minnətdarlıq duyğusunun tərənnümü idi.

**Lalə Azəri**

# “Borc” bədii filminin istehsalına başlanılıb

Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Kino Agentliyi (ARKA) tərəfindən ötən il keçirilən film layihələri müsabiqəsində qalib gələn “Borc” tammetrajlı bədii filminin istehsalına başlanılıb.



Bakı Media Mərkəzi, Mədəniyyət Nazirliyi və ARKA-nın dəstəyi ilə çəkilən, 44 günlük Vətən müharibəsinə həsr olunmuş “Borc” bədii filminin əsas mövzusu əsgər və zabitlərimizin döyüş əməliyyatlarında nümayiş etdirdiklər igidlik, rəşadət, mərdlik, hərbi bacarıqlar və vətənpərvərlik ruhudur.

Filmin baş prodüseri Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyeva çəkiliş meydançasında olub, çəkilişlərin gedişi ilə maraqlanıb, filmin yaradıcı heyəti ilə görüşüb.

# Mingəçevir teatrı tamaşaçıları Kür sahilində qarşılayacaq




Mingəçevir Dövlət Dram Teatrı özünün 57-ci mövsümünü sentyabrın 21-də açıq havada – Kür çayının sahilində edəcək.

Sənətsevərlər meydan tamaşası üslubunda qurulan açılış tədbirində teatrın repertuarındakı maraqlı tamaşalardan, əsas etibarilə komediya janrlı nümunələrdən ibarət kompozisiyanı izləmək imkanı qazanacaqlar.

Teatr yeni mövsümdə də repertuarını zənginləşdirəcək. Teatrın direktoru Əməkdar artist İntiqam Soltan cari mövsümdəki fəaliyyətin yalnız səhnə əsərləri ilə məhdudlaşmayacağını, həm də geniş hədəfləri əhatə edəcəyini bildirib. Mədəniyyət Nazirliyinin COP29 ilə bağlı tədbirlər planı çərçivəsində teatr səhnəsində də iqlim dəyişikliyi ilə mübarizə mövzusunda layihələrin həyata keçirilməsinin vacibliyini vurğulayan direktorun fikrincə, bu mövzuda təqdim ediləcək tamaşalar beynəlxalq səviyyədə də teatrın nüfuzunun artmasına xidmət edəcək.

# Akademik Musiqili Teatrda “Palata”

Oktyabrın 3-də Azərbaycan Dövlət Akademik Musiqili Teatrında yeni mövsümün ilk premyerası – rus yazıçı Anton Çexovun “6 №-li palata” əsəri əsasında hazırlanan “Palata” (səhnələşdirən Bəhram Osmanov) tamaşası olacaq.



Teatrdan bildirilib ki, janr etibarilə tragikomik düşüncə sayılan səhnə əsərinin quruluşçu rejissoru Ər-Toğrul, rejissoru Zaur Əliyev, quruluşçu rəssamı Vüsal Rəhim, rejissor assistenti Sevinc Məmmədovadır. Plastik həlli teatrın baş baletmeysteri Əməkdar artist Emin Əliyevə aiddir. Tamaşanın bədii rəhbəri Əməkdar incəsənət xadimi Əliqismət Lalayevdir.

Cəmiyyətin ictimai-fəlsəfi problemlərinin əks olunduğu səhnə əsərində hadisələr məhdud məkanda baş versə də, psixoloji təsir dairəsi hüdudsuzdur. Pantomim hərəkətlərinin də istifadə edildiyi tamaşada, əslində, real həyatda baş verən neqativ hadisələr sətiraltı ifadələrlə vurğulanır və nəticədə bəzən ağıllı, tədbirli insanların layiq olduqları yerdə olmadığı, əksinə, alçaldılaraq dəli yerinə qoyulduğu obrazlı şəkildə təqdim olunur.

“Palata”dakı obrazları Ər-Toğrul (Dilənçi), Zaur Əliyev (Yevgeni Xobotov), Nicat Əli (Xəstə), Türkel Tariqpeyma (Professor), Hüseyn Əlili (Andrey Yefimiç), Fərid Rzayev (Nikita), Cəbrayıl Cəbrayılov (Şizofren), xor artistləri Rəşad Rüstəmli, Orxan Mirzəyev və balet artisti Hüseyn Heydərli canlandıracaqlar.

# “Kontrabas” yenə festivaldadır

Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrı Patrik Züskindin “Kontrabas” monotamaşası ilə Rusiyanın Novorossiysk şəhərində festivalda təmsil olunur. “Teatr limanı” adlı 6-cı beynəlxalq festival 19-25 sentyabr tarixlərində keçirilir.



Sentyabrın 23-də Novorossiysk Dövlət Dram Teatrında nümayiş olunacaq səhnə əsərinin quruluşçu rejissoru mərhum Xalq artisti İrina Perlova, ifaçısı Əməkdar artist Şövqi Hüseynovdur.

Uzun illərdir teatrın repertuarında olan və bir çox festivallarda uğurla nümayiş etdirilən səhnə işi ensiklopedik biliklərə malik qəhrəmanı, daha doğrusu, onun həyata baxışını ehtiva edir. Opera “ulduzuna” vurulan bu şəxs həmin xanıma etiraf etmək istəyir ki, sakit otaqlarda belə onun səsini eşidir, məşhur ariyaları ifa edən gözəl səsi ilə dialoqa girir. Sarkazm və yumoristik məqamlarla zəngin olan tamaşada qəhrəmanımızın yeganə ünsiyyət vasitəsi isə kontrabasdır. Qəhrəmanımızın sevgilisi ilə dialoqunu kontrabasla dialoq əvəz edir. Bu xoş ünsiyyətin ən maraqlı mesajı bundan ibarətdir ki, insan öncə özü özünə sədaqətli olmalıdır. Yalnız bundan sonra onun ətrafdakılara sədaqətini dəyərləndirmək olar.

# Zər qədrini zərgər bilsə də...

## Səhnəmizdə bir Simuzər vardı...



“Mən daha sənə lazım deyiləm. Çalış hər gün, heç olmasa bir addım da olsa, əsl həqiqətə yaxınlaş. Sənin ən böyük müəllimin həqiqətdir! Sən onu anlamağı, onun sənə dediklərini eləməyi öyrənməlisən! Sən qağayısan! Sən mütləq uçmalısan! Axı uçmağı çox sevirsən! Uç, Conatan, uç! Heç nəyə, heç kimə, sənə inanmayanlara məhəl qoymadan uç! Daim irəli bax və uç! Özünəinamını itirmə, qəlbinin səsini dinlə!”.

Riçard Devid Baxın “Conatan Livinqston adlı qağayı” hekayəsindən bu sözlər mənə səhnə ilə yaşayan aktyorları xatırladır. Mənə elə gəlir ki, fərd kimi bir çox çatışmazlıqları olan aktyor belə dünyanın ən məsum uşağı qədər günahsız olur. Bilirsiniz nə zaman? Səhnədə, məhz oyun zamanı...

Onu səhnədə canlı görməmişəm. Bir-iki videolent və qaynar təbinin donduğu fotoları nəzərə almasaq. Amma haqqında çox eşitmişəm. Xüsusən sənət yolu Ağdam səhnəsindən keçən aktyorlardan. O, Ağdam Dövlət Dram Teatrında dövrünün ən gözəl qadın aktrisası, maraqlı obrazların ifaçısı olub. Fitri istedadı, səhnə cazibəsi və ən əsası da, böyük yanğı ilə yaratdığı obrazları sayəsində həmkarlarından daha tez çatıb şöhrətə. Dövrün teatr mühitində haqqında hər zaman müsbət rəylər olub və o istər Ağdam, istərsə də sonra pənah gətirdiyi Gəncə teatrında əbədi sənət sevgisinə heç vaxt xəyanət etməyib. Ta ki...

Bu gün hər iki teatrda sevgi ilə, nisgillə xatırlanan Əməkdar artist Simuzər Namazova haqqında söz açacağam. Əsas bələdçim teatrşünas, bölgə teatrlarında çalışan sənət insanları haqqında dəyərli bilgilərə malik Anar Bürcəliyevin “Qoşa qanad” kitabı və aktrisanın özünün 1993-cü ildə “Səhnə” qəzetində dərc olunan “Aktrisanın monoloqu” başlıqlı qeydləri oldu.

Simuzər Məmmədqulu qızı Namazova 1955-ci il oktyabrın 5-də Ağdam rayonunun Muğanlı kəndində anadan olub.

Simuzər xanım yazır: “1970-ci ildə Ağdamın Muğanlı kəndində orta məktəbin 7-ci sinfində oxuyurdum. Məktəbdən bizi tez-tez teatra aparırdılar. İlk baxdığım tamaşa heç yadımdan çıxmır. Əbil Yusifovun “Odlar içində” əsəri göstərilirdi. Salon tamaşaçı ilə dolu idi. Mənimsə yerim arxa cərgədə idi, artistlərin bir sözü belə gəlib mənə çatmırdı. Amma mən səhnəyə dəli maraqla baxırdım: rəngbərəng işıqlar, qəribə dekorlara, iştirakçıların geyimlərinə, qrimlərinə... Və... mənə elə gəlirdi ki, hər şeyi başa düşürəm. Doğrudan da, sonralar tamaşanı yoldaşlarımla müzakirə edəndə, bəzi məsələlər haqqında fikir yürüdəndə, mən üstünlük təşkil edirdim. Belə çıxırdı ki, mən pyesin süjetini qabaq cərgədə oturanlardan daha yaxşı qavramışam. Bu, qəribə bir sehr idi, möcüzə idi! Bəlkə də “alın yazısı” demək olar buna, bilmirəm...

Bir neçə gün özümə gələ bilmədim. Elə hey tamaşa haqqında, artistlərin oyunları barədə düşünürdüm. Teatrdan bəhs edən kitabları, məqalələri diqqətlə oxuyurdum. Bir gün qəzetdə Ağdam teatrının qocaman aktrisası Narınc xanım Məlikova haqqında yazı gördüm. Orada yazılmışdı ki, Narınc Məlikova 13 yaşında səhnəyə gəlib və bu işdə ona teatrın baş rejissoru Heydər Şəmsizadə kömək eləyib. Mənim isə 14 yaşım var idi! Ürəyimdə özümə də qorxulu görünən bir hiss, bir arzu baş qaldırdı... Yay idi, tətilə çıxmışdıq. Rəfiqələrimdən birini götürüb kəndimizdən beş kilometr aralı olan Ağdam şəhərinə gəldim – düz teatrın qabağına! Qapıda dayanan oğlandan Heydər müəllimi soruşdum. Məni içəri aparıb kiçik bir kabinetə ötürdü. Stolun arxasında ortaboylu, qar kimi gur ağ saçları olan, mehriban baxışlı bir kişi oturmuşdu. Mən titrək səslə arzumu ona bildirdim, dedim ki, müəllim, mən teatrı çox sevirəm, səhnəyə çıxmaq, artistlərlə bir yerdə tamaşa oynamaq istəyirəm... Heydər müəllim təbəssümlə məni dinlədi, fikrə getdi, sonra ayağa durub, məni direktorun yanına apardı. Direktor Məmməd Əmirov məqsədimi biləndə qəti etiraz etdi:





– Ay qız, sən başında bir teşt qan gəzdirirsən! Yeddinci sinif şagirdi dövlət teatrında?! Bu harda görünüb? Buna ata-anan nə deyər?

“Atam yoxdur” deyəndə “Bəs anan?” sualını verdi. Mən də “Anam sovxozda fəhlə işləyir. Ailəmiz böyükdür. Mən həm də onlara kömək etmək istəyirəm” dedim.

Məmməd müəllimin sərt sifəti dəyişdi. Dedi, qapıda tapşıraram, səni içəri buraxarlar, teatra gəl-get, biz də bir şey fikirləşərik. Sevindim! Axı bu mənim ilk “qələbəm” idi. Müqəddəs yer bildiyim teatrın qapıları üzümə açılmışdı!

Sentyabra az qalmış, Məmməd müəllim, Heydər müəllim mənim yalvarışlarıma, göz yaşlarıma rəhm eləyib əvvəl Maarif şöbəsi, sonra rayon İcraiyyə Komitəsi qarşısında məsələ qaldırdılar. Qərara gəldilər ki, ailə vəziyyətimiz ağır olduğu üçün məni fəhlə-gənclər məktəbinə keçirsinlər və teatrda kiçik bir maaşla işə götürsünlər. Bəli, mən oldum kütləvi səhnə işçisi. Amma nə tapşırıq verirdilər, can-başla yerinə yetirirdim...

F.Hacıyevin “Pələng ovu” pyesinin məşqləri başlayanda mənə Nazilə adlı kiçik bir rol verdilər. Böyük həvəslə məşq etdim, oynadım...”.

A.Bürcəliyevin kitabını vərəqlədikcə, Simuzər xanımın Ağdam teatrındakı həmkarlarının xatirələrini dinlədikcə düşüncələrimdə siluetini yaratdığım qadın canlanır gözümdə: O gülür, özü də ürəkdən. Çox məmnundur. Çünki qurtuluş üçün gəldiyi səhnə onu bağrına basdı və elə ilk rolundan da qəbul elədi.

Ağdam teatrı səhnəsində sənət ömrünün ən məhsuldar illərini yaşayıb Simuzər xanım. 1970-ci ildən 1990-cı ilədək teatrın səhnəsində 200-ə yaxın rol oynayıb. Parlaq obrazlar yaradıb. 1982-ci ildə ona respublikanın “Əməkdar artist”i fəxri adı verilib. Nəinki peşəkar aktyor təhsili, heç bir ali təhsili olmayan aktrisanın belə gənc yaşında fəxri ad alması sıradan hadisə deyildi, əslində. Sözsüz ki, çalışdığı teatrın arzulanan, rejissorların rol vermək üçün az qala yarışdığı aktrisa olub.

Monoloq-məqaləsində rolları haqqında belə deyir: “200 rol. Bu rəqəmlə bəlkə də kimsə fəxr edə bilər. Amma mən başqa cür düşünürəm. Rol aktyor üçün yüksək bir arzu, çətinliklə başa gələn bir dilək olmalıdır. İnsan yüz il yaşasa da, onun iki yüz arzusu müstəcab ola bilməz. İndi həmin rolların xəyali siyahısını nəzərdən keçirirəm, yalnız bir neçəsini yada salmaq istəyirəm. Sara (C.Cabbarlı, “Solğun çiçəklər”), Sevil (C.Cabbarlı, “Sevil”), Firəngiz (C.Cabbarlı, “Oqtay Eloğlu”), Göyərçin (H.Cavid “Uçurum”), Nərmin (İ.Əfəndiyev “Unuda bilmirəm”), Nazan (O.Kamal, “Yad qızı”), Şirin (S.Vurğun “Fərhad və Şirin”), Natəvan (Ş.Məmmədova, “Natəvan”), Marta (A.Kamyu, “Qismət”)... Bu rolların arasında axırıncını xüsusi qeyd etmək istəyirəm. Məhz bu rolun sayəsində mən, nəhayət, hiss etdim ki, nəyəsə qadirəm...”.

Aktrisa ömrünün qalan hissəsini Gəncədə keçirdi. Həyat yoldaşı Xalq artisti, Gəncə Dövlət Dram Teatrının baş rejissoru olmuş Vaqif Şərifovun yanında.

Sözsüz ki, ağır illər idi. 1990-cı ildə bu teatra gələn aktrisa Gəncənin teatr mühitinə də öyrəşdi. Teatrın səhnəsində maraqlı rollar oynadı. Amma Anarın “Təhminə və Zaur”unda Təhminə, N.Məmmədovanın “Cavad xan”ında Mələknisəbəyim və Ə.Səmədlinin “Ölüm hökmü”ndə Qadın rolları onu buradakı tamaşaçılara daha çox sevdirdi.

İstər həyatında, istərsə də yaradıcılığında hər şeyin nizama düşməsi aktrisanı daha da şövqə gətirirdi. Amma bu da uzun sürmədi və 1996-cı il iyulun 1-də, 41 yaşında faciəli şəkildə həyata vida etdi. Naqilə qoşulmuş elektrik cihazı ilə qəfil təmas onun uzun sənət yolunu yarıda qoydu, işıqlı səhnə arzularını yandırıb külə çevirdi.

Beləcə, “Yeni rollar üçün ürəyim əsir. Yaş ötür, amplua dəyişir, arzusunda olduğum rollar məndən uzaqlaşır. Ancaq nə etməli?” deyən aktrisa etiraz-eyhamını bir də belə edir etibardan kəm dünyaya.

Yazını onun “Üz istəyirəm, başınızı ağrıtdım. “Səhnə”nin oxucuları da məni bağışlasınlar. Çoxdandır jurnalist üzü görmürəm. Axırıncı dəfə on il bundan qabaq yazmışdılar haqqımda. Əyalət teatrlarında işləyənlərin halı belədir də, nə etmək olar? Halbuki burada elə gözəl sənətkarlar var ki, hərəsinin həyatı bir dastandır” gileyi ilə bitirməyim də təsadüf deyil. Çünki onda da, elə indi də teatra paytaxtlaşmış münasibət bir çox sənət insanlarını, uzaq-yaxın səhnələrdəki peşəkar, fədakar aktyorları küsdürüb və könlünü almağa məqam tapmamış bizdən...

**Həmidə Nizamiqızı**

# Eksponatlarla neft sənayesinin tarixinə səyahət...



*əvvəli səh. 1-də*

Əlamətdar gün ərəfəsində muzeydə neft sənayesinin tarixinə səyahət elədik.

Muzeyin əməkdaşı Günay Umarova deyir ki, ziyarətçilər neft sənayesinə aid eksponatlara xüsusi maraq göstərirlər. Bu eksponatlar yalnız metal, kağız və köhnə avadanlıqlardan ibarət deyil, onlar eyni zamanda Azərbaycanın maddi və mənəvi sərvətlərini, xalqın əzmkarlığını da simvolizə edir.

## Üzağardan "qara qızıl"...

Neft sənayesi ilə bağlı eksponatlar muzeyin müxtəlif bölmələrində yerləşir, hər biri müvafiq dövrləri və hadisələri əks etdirir. Bunların sırasında XIX əsrin sonlarından başlayaraq müasir dövrə qədər olan avadanlıqlar, alətlər, fotoşəkillər və s. var. Bələdçimiz deyir ki, XIX əsrin ortalarından etibarən neftin çıxarılmasında sənaye üsulundan istifadə olunmağa başlanılır. Azərbaycan Rusiya imperiyasının tərkibində idi və neftli torpaqlar da çar üsul-idarəsinin, yəni dövlətin sərəncamında idi. 1872-ci ildə iltizam sistemi ləğv olunur. Bundan sonra neftli torpaqlar satışa çıxarılır. Getdikcə bu sahəyə maraq artır, sahibkarlar neft sənayesi ilə məşğul olmağa başlayırlar. Tədricən Azərbaycanın yerli neft burjuaziyası meydana çıxır. Hacı Zeynalabdin Tağıyev, Ağamusa Nağıyev, Murtuza Muxtarov, Şəmsi Əsədullayev və başqa neft milyonçuları bu sahədə mühüm yer alırlar. Xaricdən gələn kapitalistlərin ön sırasında isə Nobel qardaşları dururdu. Onlar 1879-cu ildə Bakıda öz şirkətlərini qurdular...

Muzeyin "Neft sənayeçiləri" bölməsində Murtuza Muxtarovun həyat yoldaşı Liza (Yelizaveta) Muxtarovaya məxsus nimçə, onun evində istifadə olunmuş qurğu, Bakı zadəganlarından Aşurbəyovlara məxsus Almaniya istehsalı çay dəsti, Nobellərin Bibiheybətdəki mədənlərinin hüdudlarını müəyyənləşdirmək üçün istifadə olunan topoqrafik nişan və s. eksponatlar maraqla qarşılanır.

## Dolama çarx, dartay qurğusu və jelonka...

İltizam sisteminin ləğv olunması neft sahəsində yeni texnologiyanın da inkişafına təkan verib. Bələdçimiz bildirir ki, əvvəllər neft quyularını at gücü ilə hərəkətə gətirilən dolama çarx dediyimiz vasitə ilə qazırdılar. Daha sonra dartay qurğularla (dartay barabanı və dartayçı vedrəsi), eynilə su quyusundan su çıxarılan kimi, fəhlələr neft quyusundan neft çıxarırdılar. Torpaq neftlə zəngin olduğu ilk vaxtlar quyuları dərin qazmağa ehtiyac qalmırdı. Daha sonra isə bu sahədə "jelonka" deyilən yeni bir texnikadan istifadə olunmağa başladı. Jelonkaların da istifadə qaydası eynilə şpris iynəsinin funksiyasına əsaslanır. Jelonkanın içərisində klapan olur.



Həmin klapan açılır, vakuum vasitəsilə neft oraya daxil olur və fəhlələr tərəfindən kənarlaşdırılırdı. Bütün bu sadalanan alətlərdən başqa quyuların qazılmasında istifadə edilən iskənə, neftin çıxarılması üçün vedrələr, saxlanılması üçün qab, körük və s. muzeydə nümayiş olunur.

## Nobellərdən yadigar tankerin maketi

Günay xanım deyir ki, əvvəllər nefti hovuzlarda saxlayırdılar. Bu da müəyyən itkilərə səbəb olur, yaxud da kiçik bir qığılcımdan böyük yanğınlar baş verirdi. Buna görə də sonralar neftin daha təhlükəsiz saxlanılma metodlarından istifadə olunmağa başlanıldı. Neft çıxarılandan sonra əsas məsələ həm də onun düzgün daşınması idi. İlk dəfə neft tankerlərini "Nobel qardaşları" şirkəti istifadəyə vermişdi: "Gördüyünüz bu eksponat 1878-ci ildə istifadəyə verilmiş "Zoroastr" tankerinin maketidir.



Bu tanker Xəzər dənizi vasitəsilə Azərbaycan neftini Rusiyaya daşıyırdı. Daha sonralar isə neft dəmir yolu ilə daşınmağa başlandı".

## Dünyada daha bir ilk – dənizdə neft hasilatı

XX əsrin 40–60-cı illərində Azərbaycanda yeni sənaye müəssisələrinin, elektrik stansiyalarının tikintisi, nəqliyyatın inkişafı geniş vüsət alır. İstehsalatda yeni texnika və avadanlıqlar tətbiq olunur. Bununla yanaşı, Sumqayıt, Mingəçevir, Əlibayramlı (indiki Şirvan) kimi yeni şəhərlər salınır. 1949-cu il noyabrın 7-də əfsanəvi Neft Daşlarında hasilatın başlanması ilə dünyada açıq dənizdə neftçıxarmanın əsası qoyulur. Dənizdə neft yataqlarının kəşfinə və işlənilməsinə görə Ağaqurban Əliyev (1911-1997), Qurban Abbasov (1926-1994), Mixail Kaveroçkin (1904-1957) və başqaları Stalin mükafatına layiq görülürlər.



Muzeydə SSRİ-nin neft sənayesi naziri olmuş Nikolay Baybakovun adıçəkilən neftçi alimlərə göndərdiyi təbrik teleqramı, Neft Daşlarında ilk quyuların qazılması ilə bağlı fotoşəkillər, Neft Daşlarının maketi və s. qorunub saxlanılır.

Ziyarətçilər muzeydə "Əsrin müqaviləsi" ilə də bağlı məlumat alır, fotoşəkillərlə tanış olurlar. Yeri gəlmişkən, xatırladaq ki, "Əsrin müqaviləsi"ni həyata keçirən rəhbər komitənin (Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti) ilk iclası 24 yanvar 1995-ci il tarixində məşhur neftxudamız Tağıyevdən yadigar qalan bu binada, Milli Azərbaycan Tarixi Muzeyinin "Şərq" zalında gerçəkləşib.

## Bank işi, poçt və rabitə

Neft sənayesi digər sahələrin də inkişafına təkan verir. 1874-cü ildə fəaliyyətə başlayan "Bakı Kredit Cəmiyyəti" Azərbaycanda ilk bank müəssisəsi hesab edilir. Bakı artıq bir sənayesi şəhəri olduğu üçün rabitə sahəsi də inkişaf edirdi. Bakı, Gəncə, Lənkəran və Salyanda fəaliyyət göstərən poçt stansiyalarında mallar həm Rusiyanın şəhərlərinə, eləcə müxtəlif ölkələrə göndərilirdi. 1864-cü ildə Tiflis-İrəvan-Naxçıvan-Culfa teleqraf xəttinin istifadəyə verilməsi ilə Azərbaycanda rabitənin yeni növü – teleqraf yarandı. 1880-ci ildə isə Bakıda ilk telefon xətləri çəkildi.

Muzeydə XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində bank işi, poçt və rabitə sahəsi ilə bağlı eksponatlar ayrıca bölmədə nümayiş olunur.

***

Milli Azərbaycan Tarixi Muzeyində neft sənayesi ilə bağlı eksponatlar, əslində, ölkəmizin iqtisadi müstəqilliyinin, inkişafının simvolu kimi qiymətli nümunələrdir. Bu eksponatlar həm də araşdırmaçılar, Azərbaycan tarixini öyrənmək istəyənlər üçün qiymətli mənbədir.

**Nurəddin Məmmədli**

# Kinodakı "qara qızıl"

"Neft çıxdı!... Əla neftdir! Şokolad kimi!..."



Azərbaycan kinosunda neft mövzusu yazısı üçün düşünürəm... Düşüncələr fonunda fikrimdə Mikayıl Müşfiqin şeirindən bir sətir dolanır.... Neft olmasa gəlməz vecə işlər! Həqiqətən də, bu gün neft olmasa, gəlməz vecə neçə işlər. Azərbaycanda kinonun yaranması da, sözün həqiqi mənasında, neft fontanı ilə başlanıb...

1895-ci ildə Avropada (Paris) yaranan kino sənəti az sonra Azərbaycana da gəlib çıxır. 1898-ci ildə fotoqraf-kinooperator Aleksandr Mişon "Balaxanı mədənində neft fontanı" adlı qısa xronika çəkib. Hesab olunur ki, bu, Azərbaycan kinematoqrafının tarixində və dünyada neft hasilatına həsr edilmiş ilk filmdir. A.Mişonun 1898-ci ildə lentə aldığı Azərbaycan nefti ilə bağlı daha bir qısa film "Bibiheybətdə yanğın" adlanır.

İki il sonra həmin film Paris Beynəlxalq Sərgisində təqdim edilir və lentlər də orada qalır. Bu filmin bəzi kadrları 1995-ci ildə dünya kinosunun 100 illiyi şərəfinə Fransada göstərilib.

Neftlə bağlı bədii kinoya gəldikdə isə, bu mövzuda ilk nümunə 1916-cı ildə "Piron qardaşları" kinostudiyasında yazıçı İbrahimbəy Musabəyovun eyniadlı povestinin motivləri əsasında çəkilmiş "Neft və milyonlar səltənətində" (rejissor Boris Svetlov) filmidir. Azərbaycan kinosu tarixində ilk tammetrajlı bədii film həmin il Hacı Zeynalabdin Tağıyevin pasajında (indiki "Köhnə univermaq") göstərilib.

Bakı neft sahibkarlarının da dəstəyi ilə çəkilişləri paytaxtımızda və Tiflisdə aparılmış filmdə XX əsrin əvvəlindəki Bakı, yerli milyonçuların məişəti və neft mədənlərində çalışaraq çörəkpulu qazanan fəhlələrin həyatı təsvir edilir. Onu da qeyd edək ki, "Neft və milyonlar səltənətində" əsəri 1980-ci ildə yenidən ekranlaşdırılıb və rejissor Fikrət Əliyevin çəkdiyi "Qızıl uçurum" melodramı Azərbaycan kinosunun ən yaxşı nümunələrindən biridir.

Bədii kino ilə bağlı fikrimizi davam etdirməli olsaq, sovet dövründə Azərbaycan kinematoqrafçıları neft mövzusuna dəfələrlə müraciət ediblər. 1940-cı ildə Bakı neftçilərinin həyatından bəhs edən "Yeni horizont", 1950-ci ildə lentə alınan "Bakının işıqları" bu qəbildəndir. 1950–1960-cı illərdə Bakı kinostudiyasında neft mövzusunda dörd bədii film istehsal olunub. Bunlar bu gün də sevilərək baxılan "Bəxtiyar" (Lətif Səfərov), "Qara daşlar" (Ağarza Quliyev), "Möcüzələr adası" (Həsən Seyidbəyli) və "İnsan məskən salır" (Arif Babayev) filmləridir. Bu filmlərin sırasına daha sonra Arif Babayevin çəkdiyi "Ömrün ilk saatı", rejissor Eldar Quliyevin "Sevinc buxtası" filmləri daxil olur. Birincidə zəhmətkeş neftçilər sülaləsindən bəhs edilirsə, ikinci filmdə sovet hakimiyyətinin taleyinin 20-ci illərdə Bakı neftindən nə qədər asılı olduğu tarixi faktlarla nümayiş etdirilir. Onu da qeyd edək ki, 1978-ci ildə "Sevinc buxtası" filminin yaradıcı heyətinə Azərbaycan SSR Dövlət Mükafatı verilib.

Bakı neftinin və neftçi əməyinin bədii kinoda təcəssümünü "Bizim Cəbiş müəllim" (rejissor Həsən Seyidbəyli), "Bakıda küləklər əsir" (Muxtar Dadaşov), "Qara gölün cəngavərləri" (Ənvər Əbluc) filmlərində də təsirli ekran təsviri ilə görürük.

Rejissorlarımız sonralar da neft mövzusuna müraciət ediblər. 1995-ci ildə ekranlara çıxan "Yük" filmi Bakı milyonçusu Ağamusa Nağıyevin həyatının bir günü ərzində başına gələn əhvalatlardan söhbət açır. Filmin ssenari müəllifi Şahmar Ələkbərov, rejissoru Rövşən Almuradlıdır. Baş rolu Əməkdar artist Mirzə Ağabəyli oynayıb. Onun ifasında Ağamusa Nağıyev qeyri-adi xarakteri, həyata baxışı, insanlara yanaşması olan tragikomik obrazdır. Tamaşaçı təzadlı xasiyyətə malik Bakı milyonçusunun taleyüklü ömür yoluna nəzər salır.

Təbii ki, 1898-ci ildə neftlə bağlı xronikalarla başlayan Azərbaycan kinosunun sənədli filmlər salnaməsi də ötən onilliklərdə xeyli zənginləşib. 1920-ci illərdə Azərbaycan sovetləşəndən sonra isə neft mövzusunda bir neçə xronika filmləri də lentə alınır. Sonrakı illərdə isə bu mövzuya maraq daha da artır, sənədli kino rejissorları "Neft simfoniyası", "Bakı neftçiləri", "Xəzər neftçiləri", "Qaliblər adası" və digər onlarla sənədli ekran əsərləri ərsəyə gətirirlər. Bu mənada, məşhur kinorejissor Roman Karmenin də adını qeyd etmək yerinə düşər.



O, "Xəzər neftçiləri haqqında dastan" və "Dənizi fəth edənlər" kinodilogiyasını neftçilərə həsr edib. Bu iki filmə görə yaradıcı qrup Lenin mükafatına layiq görülüb.

Bu gün Azərbaycan Dövlət Film Fondunda neft mövzusunda onlarla filmlər qorunur. O cümlədən neftdən bəhs edən ilk filmlərimizi Əməkdar incəsənət xadimləri Aydın Kazımzadə və Ayaz Salayev Fransa arxivlərində aşkar ediblər. Paris Kino Arxivindən Bakıya surətləri çıxarılaraq gətirilmiş filmlər hazırda Azərbaycan Dövlət Film Fondunda saxlanılır.

Fondda saxlanılan filmlər sırasında "Əsrin müqaviləsi" tammetrajlı sənədli filmi (rejissor Cahangir Zeynallı) də var. Film müstəqil Azərbaycanın gələcək tarixi üçün böyük önəm kəsb edən neft müqaviləsinin hazırlanması, imzalanması və həyata keçirilməsində Ulu öndər Heydər Əliyevin müstəsna xidmətlərini diqqətə çatdırır.

2015-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə Bakı Media Mərkəzinin çəkdiyi "Hədəf Bakıdır. Hitler neft uğrunda döyüşü necə uduzdu" sənədli filmi (layihə rəhbəri Arzu Əliyeva) də yeni dövr Azərbaycan kinosunun bu mövzuda dəyərli nümunəsidir. Filmdə II Dünya müharibəsinin tarixinə tamamilə yeni baxış bucağından – neft uğrunda savaş prizmasından baxılır.

... Adını çəkdiyimiz və çəkmədiyimiz neft mövzulu filmlər Azərbaycanda bu sahənin yüz ildən artıq bir dövrdə mədəniyyətlə, sənətlə, kino ilə nə dərəcədə sıx bağlı olduğunu göstərir. Azərbaycanı haqlı olaraq neft hasilatı mövzusunda ən çox və ən yaxşı filmlər çəkilmiş ölkə hesab edirlər...

**Lalə Azəri**

**Pressfakt**

Bu günlər ölkəmizin mədəni həyatı musiqi notları üzərində köklənib. Dahi Üzeyir Hacıbəylinin adı ilə şərəflənən Milli Musiqi Günü Azərbaycanın hər yerində qeyd edilir. Musiqi və ümumiyyətlə, mədəniyyət tariximizdə əvəzsiz yeri olan Üzeyir bəyin ən yaxın məsləkdaşı Müslüm Maqomayevin də adı milli sənət salnaməmizə parlaq imza kimi yazılıb. Taleyin işinə bax ki, eyni ilin eyni günündə doğulan bu iki sənətkarın adı onlar ölməzliyə qovuşandan sonra da yanaşı çəkilir.

# İllər öncə qəzetlər nədən yazırdı?

Milli Kitabxananın dövri mətbuat arxivindən (25)

37 ildir ki, Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasına gələnləri böyük bəstəkarın büstü salamlayır. Abidənin açılışı 1987-ci ilin 18 sentyabrında keçirilmişdi.

Mətbuat xronikasından növbəti seçmələr bu barədədir. Seçmələrdə dövrün orfoqrafiyası saxlanılıb.

## Daim canlı, daim ruhlandırıcı musiqi

*M.Maqomayevin abidəsinin açılışı*

Görkəmli bəstəkar, dirijor, musiqiçi-maarifçi və ictimai xadim Müslüm Maqomayevin adı qədirbilən nəsillərin xatirəsində həmişə yaşayacaqdır. Böyük Üzeyir Hacıbəyovla birlikdə o, Azərbaycan professional musiqisinin beşiyi başında durmuş, professional musiqimizin gələcək inkişafının bünövrəsini qoymuşdur. M.Maqomayevin abidəsinin təntənəli açılışı böyük sənətkara xalq məhəbbətinin parlaq ifadəsinə çevrilmişdir. Açılış mərasimi bəstəkarın anadan olduğu gün, sentyabrın 18-də onun adını daşıyan Azərbaycan Dövlət Filarmoniyasının binası qarşısında keçirilmişdir.

Pyedestalda ağ mərmərdən heykəl büst ucalır. Onun üstündə bu sözlər həkk edilmişdir: "Müslüm Maqomayev". Əsərin müəllifləri Azərbaycanın xalq rəssamı, SSRİ Dövlət mükafatı laureatı Ömər Eldarov və arxitektor Arif Salehovdur. Abidənin önünə tər gül-çiçək dəstələri qoyulur.

Abidənin açılışı mərasimində Azərbaycan SSR mədəniyyət naziri Z.N.Bağırov, Azərbaycan Yazıçılar İttifaqı idarə heyətinin birinci katibi Anar, Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının rektoru professor E.Abasova, M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının bədii rəhbəri və direktoru, respublikanın xalq artisti bəstəkar Polad Bülbüloğlu, Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının tələbəsi Lalə Mehdiyeva çıxış etmişlər. Onlar M.Maqomayevin yaradıcılıq irsinin əbədiliyindən, gənc sovet incəsənətinin inkişafında, Azərbaycanda sosialist mədəniyyəti qurulucuğunda onun böyük rol oynadığından danışmışlar. Çıxış edənlər demişlər ki, Müslüm Maqomayev simfonik musiqi janrında, teatrda və kinematoqrafda eyni dərəcədə səmərəli işləmiş görkəmli musiqiçi idi. O, gənc musiqiçi kadrların tərbiyə edilməsi üçün çox iş görmüşdür. Natiqlər xalqın mədəniyyətinin tərəqqisinə gündəlik qayğıya, görkəmli mədəniyyət xadimlərinin xatirəsi əziz tutulduğuna görə Azərbaycan KP MK-ya və respublika hökumətinə minnətdarlıqlarını bildirmişlər.

M.Maqomayevin və Ü.Hacıbəyovun əsərlərinin melodiyaları musiqinin misilsiz əhəmiyyətini, onun nəcib ruhlandırıcı qüdrətini təsdiq edirmiş kimi dalğa-dalğa ətrafa yayılmışdır. SSRİ xalq artisti R.Hacıyevin bəstələdiyi musiqi ithafı da ifa olunmuşdur. Konsertdə Qara Qarayev adına Azərbaycan Dövlət kamera orkestri və Dövlət xor kapellası iştirak etmişlər. Dirijor respublikanın xalq artisti N.Rzayev idi.

## Böyük sənətkara məhəbbətlə

Əlamətdar hadisələrin musiqi təqviminə sentyabrın 18-i – görkəmli bəstəkarlar Üzeyir Hacıbəyovun və Müslüm Maqomayevin anadan olduqları gün də daxil edilmişdir. Bu iki dostun adları Sovet Azərbaycanının musiqi mədəniyyətinin təşəkkülü və inkişafı salnaməsində qızıl hərflərlə yazılmışdır.

Görkəmli mədəniyyət ustalarının xidmətləri şərəfinə on ildir ki, sentyabrın 18-də respublikada musiqi bayramı keçirilir. Ənənəyə uyğun olaraq, bayram şənlikləri bu dəfə də Azərbaycan professional musiqisinin banisi Üzeyir Hacıbəyovun adını daşıyan Azərbaycan Dövlət Konservatoriyasının binası qarşısında böyük bəstəkarın abidəsi önündə gül-çiçək dəstələri qoyulması ilə başlamışdır.

Adətən, elə buradaca, meydanda keçirilən bayram şənliyinin proqramını bu il yağmurlu hava pozmuşdur. Proqramın bədii hissəsi Şövkət Məmmədova adına opera studiyasının salonunda keçirilmişdir. Burada Azərbaycanın yaradıcı kollektivlərinin və incəsənət ustalarının konserti olmuşdur.

Azərbaycan Bəstəkarlar İttifaqı idarə heyətinin katibi, respublikanın xalq artisti Tofiq Quliyev buraya




toplaşanlar qarşısında çıxış edərək Üzeyir Hacıbəyovun və Müslüm Maqomayevin həmişə təravətli yaradıcılıq irsindən danışmış və demişdir ki, Azərbaycanın bütün mədəniyyət xadimləri musiqi gününün bütün respublikada əsl xalq bayramı kimi keçirilməsi üçün əlindən gələni etməlidirlər.

Konsertin proqramına Üzeyir Hacıbəyovun "Koroğlu" operasından və "Arşın mal alan" musiqili komediyasından parçalar, Müslüm Maqomayevin "Təntənəli marş"ı və "Şah İsmayıl" operasının uvertürası, Q.Qarayevin "Yeddi gözəl" baletindən vals, F.Əmirovun, Niyazinin və T.Quliyevin mahnıları daxil idi. Onlar respublikanın xalq artisti, dirijor R.Abdullayevin idarəsi ilə Üzeyir Hacıbəyov adına Dövlət simfonik orkestrinin və Azərbaycan xor kapellasının ifasında səslənmişdir. Əsərlərin solo hissəsini SSRİ xalq artisti L.İmanov və musiqi ifaçılarının Zaqafqaziya müsabiqəsinin laureatı F.İbrahimova ifa etmişlər.

*"Kommunist" qəzeti, 19 sentyabr 1987-ci il*

İzzət Orucova – 115



# Elmdən kinoya, yenə elmə...

## “Mən oynamamışam, kamera qarşısında iki qadın taleyini yaşamışam...”

Milli kinomuzda iz qoyan sənət adamları çox olsa da, onun tale yolu kimsəninkinə bənzəmir. Texnologiya sahəsində ali təhsil alması belə həmin dövr üçün hadisə sayılırdı. Belə bir mütəxəssisin baş rolda kinoda çəkilməsi isə bənzəri olmayan hadisə idi. Yəqin xatırladınız, İzzət Orucovadan bəhs edirik. Bu il görkəmli ziyalının anadan olmasının 115 illiyidir.

İzzət Mirzəağa qızı Orucova 16 sentyabr 1909-cu ildə Bakıda maarif və mədəniyyətə rəğbət bəsləyən bir ailədə dünyaya göz açıb. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Neft və Sənaye Universiteti) Texnoloji fakültəsinə qəbul olunur. 1932-ci ildə təhsilini başa vurub təyinatla Elmi-Tədqiqat Neft Emalı İnstitutunda əmək fəaliyyətinə başlayır.

İzzət Orucova hələ tələbə ikən incəsənət sahəsinə maraq göstərirdi. Onda aktrisalıq keyfiyyətləri də elə həmin dövrdə təzahür etmişdi. O, əvvəlcə “Sevil”, sonra isə “Almaz” filmlərində çəkilir. Azərbaycan qadınlarının gerçək obrazlarını inandırıcı cizgilərlə yarada bilir. Çəkiliş meydançasında çaşmadan hisslərini təmkinlə büruzə vermək bacarığı ona uğur qazandırır. Bu iki filmdən sonra o, kinodan uzaqlaşır və həyatını bütünlüklə elmə həsr edir.

Kinoşünas, Əməkdar incəsənət xadimi Aydın Kazımzadə araşdırmasında İzzət Orucovanın qısa sürən sənət həyatı haqqında maraqlı məqamları diqqətə çatdırır. İzzət xanım deyirmiş ki, əgər Cəfər Cabbarlı sağ olsaydı, onun filmlərində çəkilişləri davam etdirərmiş.

Cəfər Cabbarlının “Sevil” pyesi ilk dəfə 1928-ci ilin oktyabr ayında Azərbaycan Dövlət Dram Teatrının səhnəsində tamaşaya qoyulur və böyük əks-səda doğurur. Müəllif “Sevil”in səhnədəki uğurunu kinoda da həyata keçirmək arzusuna düşür. Ancaq çətinliklərlə qarşılaşır. Çünki o dövrdə teatrlarda qadın rollarını oynayacaq azərbaycanlı qızı tapmaq çətin idi. Ona bir çox əcnəbi aktrisa məsləhət görülsə də, Cabbarlı “Sevil elə bir fərdi xarakterə malikdir ki, onu mütləq türk qızı oynamalıdır” deyə etiraz edir.

Dramaturq uzun müddət aktrisa axtarışında olur və nəhayət, istədiyini tapır. Tələbə İzzət Orucova rəfiqəsi ilə kinoteatrda səssiz xarici filmə baxarkən ədibin diqqətini çəkir. O daha sonra fikrini İzzətin atasına bildirir. Teatrı, kinonu sevməsinə baxmayaraq, ata övladının aktrisa olmasını qəbul edə bilmir. Cabbarlı isə inadından dönmür. Sənət adamları, dövrün tanınmış ziyalıları da Mirzəağa kişi ilə söhbət edib onu yola gətirməyə çalışırlar. İnadkarlıqdan yorulan Mirzəağa kişi günlərin birində Cəfər Cabbarlını mehriban qarşılayır... İzzət Orucova xatirələrində bu barədə yazır: “Atam mənim kinoya çəkilməyimə bir şərtlə icazə verdi. Cəfərin özü məni faytonla aparacaq və faytonla da geri qaytaracaq. Mənimlə söhbətində də atam demişdi ki, bilirəm, məni danlayacaqlar. Amma nə edim, bu kişinin sözündən çıxa bilmədim”.

Beləliklə, “Sevil” filmi çəkilir və uğurlu ekran əsərinə çevrilir, öz tamaşaçısını tapır. Görkəmli dramaturq da arzusuna çatır.



C.Cabbarlı 1934-cü ildə “Almaz” pyesini ekranlaşdırmağı qərara alır. Bu vaxt İzzət xanım artıq Elmi-Tədqiqat İnstitutunda işləyirdi. Çəkilişlərdə iştirak etmək üçün təxminən bir il işdən ayrılmalı olur. Bu məqsədlə institutun rəhbərliyinə müraciət edir. Ancaq onun müraciəti direktor M.Kapelyuşnikov tərəfindən etirazla qarşılanır. İş elə gətirir ki, direktor ezamiyyətdən qayıdarkən qatarda C.Cabbarlı ilə bir kupedə olur. Bir-birlərini yaxından tanıyırlar. Bu tanışlıqdan sonra o özü İzzət xanımı kabinetinə çağırır və çəkilişlərə icazə verdiyini bildirir.

İzzət xanım Almaz obrazını, müəllif necə görmək istəyirdisə, elə də yaradır. Ancaq filmi çəkmək və görmək görkəmli dramaturqa qismət olmur. İ.Orucova bu qəfil itkidən bərk sarsılır. Bir daha kinoya çəkilmir. Filmi rejissor Ağarza Quliyev çəkir və ekran əsəri C.Cabbarlıya ithaf edilir.

İ.Orucova 1935-ci ildə Mövsüm İsmayılzadə adlı gənc pedaqoqla ailə qurur. Ancaq bu xoşbəxtlik uzun sürmür. 1937-ci ildə M.İsmayılzadə “xalq düşməni” kimi həbs edilir. Həbs olunacağını öncədən hiss edən Mövsüm dərhal həyat yoldaşından ayrılır. O bu fədakar addımı ilə İzzət xanımı və körpə oğlu Yılmazı sürgündən xilas edir.

İ.Orucova illər sonra xatirələrində yazırdı: “Məni ilk azərbaycanlı kinoaktrisa adlandırırlar. Mən bəzən düşünürəm: bu doğrudurmu? Ümumiyyətlə, mən aktrisa olmuşammı? Axı mən oynamamışam, yox – mən kamera qarşısında iki qadın taleyini yaşamışam. Onlar mənim müasirlərim idi, demək olar ki, həmyaşıdlar idik. Bu qadınların hər ikisi mən idim. Lakin başqa həyat situasiyasına salınmışdım. Mənim çəkildiyim hər iki film – “Sevil” və “Almaz” ümumi bir mövzuya həsr olunmuşdu: Azərbaycan qadınının taleyinə, qadın azadlığına...”.



Beləliklə, İ.Orucova ekranda yaratdığı Sevil və Almaz obrazlarının yolunu gələcək həyatında davam etdirir. O, elm sahəsində çoxlarının arzuladığı məqamlara yetişir.

Kimyaçı alim texnika üzrə fəlsəfə doktoru (1947) və elmlər doktoru (1962) elmi dərəcələrini alır. Azərbaycan EA-nın müxbir üzvü (1967) və həqiqi üzvü (1972) seçilir. Keçmiş SSRİ-nin ən iri sənaye mərkəzlərində və bir sıra xarici ölkələrdə keçirilən simpoziumlarda məruzələr edir. O, 300-ə yaxın elmi əsəri, Azərbaycan dilində “Neft-kimya” və “Sürtkü yağları” dərslikləri, 30-dan çox müəlliflik şəhadətnaməsi ilə elmimizdə silinməz iz qoyur.

“Əməkdar elm və texnika xadimi” fəxri adına və respublikanın Dövlət mükafatına layiq görülən, adını Azərbaycanın kino salnaməsinə yazdıran akademik İzzət Orucova 22 aprel 1983-cü ildə Bakıda vəfat edib.

**Savalan Fərəcov**

# “Məqsədimiz muğamları müasir yanaşma ilə təbliğ etməkdir”

## Səmərqənddən Qran-pri gətirmiş “Simurq” üzvlərinin təəssüratı

Dahi Üzeyir Hacıbəyli XX əsr Azərbaycan musiqi mədəniyyətində yeni konsepsiyanın yaradıcılarından biridir. Həmin dövr həm milli, həm də dünyəvi musiqinin inkişafı, hətta qızıl çağı kimi xarakterizə olunur. Böyük musiqi xadiminin yorulmaz, fədakar fəaliyyəti sayəsində görkəmli bəstəkarlar yetişdi, musiqi təhsili şaxələndi. Bu gün musiqi mədəniyyətimizdə əldə olunan uğurlara görə Üzeyir bəy başda olmaqla görkəmli bəstəkar və pedaqoqlarımıza borcluyuq.




Musiqi sahəsinin inkişafı və təbliğində beynəlxalq müsabiqə və festivalların mühüm rolu var. Hər il ölkəmizdə dövlət dəstəyi ilə musiqinin müxtəlif janrlarını əhatə edən beynəlxalq festivallar keçirilir. Eləcə də Azərbaycan musiqiçiləri beynəlxalq festival və müsabiqələrdə iştirak edərək musiqi mədəniyyətimizi təbliğ edirlər.

Xəbər verdiyimiz kimi, bu yaxınlarda Özbəkistanın Səmərqənd şəhərində keçirilən XIII “Şərq təranələri” Beynəlxalq Musiqi Festivalında (26-30 avqust) ölkəmizi təmsil edən “Simurq” muğam ansamblı Qran-pri mükafatına layiq görülüb.

Özbəkistan Respublikasının Mədəniyyət Nazirliyi, UNESCO, ICESCO və TÜRKSOY-un tərəfdaşlığı ilə gerçəkləşən nüfuzlu festivalda 80-ə yaxın ölkə arasında baş mükafatın əldə edilməsi musiqi mədəniyyətimiz adına fəxr olunası hadisədir.

Onu da qeyd edək ki, “Şərq təranələri” bu dəfə Azərbaycan üçün daha bir əlamətdar hadisə ilə yadda qalıb. Festivalın tarixində Azərbaycan ilk dəfə beynəlxalq münsiflər heyətinə sədrlik edib. Ölkəmizi jüri rəhbəri kimi Əməkdar artist Beynəlxalq Muğam Mərkəzinin direktoru Sahib Paşazadə təmsil edib.

Tanınmış xanəndə Mirələm Mirələmov və instrumental heyət – Zəki Vəliyev (tar), Elnur Mikayılov (kamança), Əməkdar artist Kamran Kərimov (nağara), İdris Hüseynov (ud) və Anar Vəlizadədən (balaban) ibarət “Simurq” ansamblı isə möhtəşəm ifası ilə Azərbaycana bu festivalda üçüncü dəfə qələbə qazandırıb.

Ansamblın bir neçə üzvü qalibiyyət təəssüratını bizimlə bölüşdü.

**Musiqi qrupunun rəhbəri Elnur Mikayılov**: “Dinamik ifamızla tamaşaçı və münsiflərin rəğbətini qazana bildik. Bu, həqiqətən də, qürurverici idi. Öz mədəniyyətimizi təmsil etməyimizin məsuliyyətini bilirdik. Hədəfimiz ən yüksək mükafatı almaq idi. Buna görə də detallı işlədik, gərgin məşqlərimiz oldu. Şükürlər olsun ki, yüksək nəticəyə nail olduq. Ən həyəcanlı an sonda nəticələrin açıqlanması idi. Mükafatlar sıralandıqca həyəcan və nigarançılığımız da artırdı. Bu, unudulmaz anlar idi. Azərbaycanımızın adının çəkilməsi bizi çox təsirləndirdi... Məqsədimiz milli muğamlarımızın kökünü saxlamaqla müasir yanaşma ilə onu təbliğ etməkdir və buna nail oluruq.

Daha öncə də qrupumuz bir neçə festivalda uğurla iştirak edib. Bu qələbə qrup şəklində ilk böyük uğurumuz oldu. İnanıram ki, gələcəkdə yeni nailiyyətlərimiz olacaq. Bu festivalda bizə dəstək olan Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə təşəkkür edirik. Hazırda yeni layihələrə hazırlaşırıq. Yaxın vaxtlarda təqdim edəcəyik. Bizi dəstəkləyən hər kəsə təşəkkürümü bildirirəm”.

**Xanəndə Mirələm Mirələmov**: “Şərq təranələri” bir tərəfdən qədim mədəniyyəti və ənənələri yaşadaraq onlara olan bağlılığımızı göstərmək baxımından əvəzolunmaz festivaldır. Digər tərəfdən, bu festivalda uğur qazanmaq yaradıcılıq bacarıqlarımızı təsdiqləyərək beynəlxalq səviyyədə tanınmaq deməkdir. Bu qalibiyyət həm də Səmərqənd kimi tarixi əhəmiyyətə malik bir şəhərdə mədəniyyətimizi, milli musiqimizi layiqincə təmsil etdiyimizi göstərir. Festivalın Qran-prisini qazanmağımız Azərbaycanın musiqi mədəniyyətinin beynəlxalq arenada tanınmasına ciddi töhfədir. Yerli media və mədəniyyət dairələri bu qalibiyyətə geniş diqqət ayırdı, ölkəmizin musiqiçilərinin dünya səhnəsindəki uğurlarını qeyd etdilər”.

**Nağara ifaçısı Kamran Kərimov**: “Mən bu festivalda ilk dəfə 2009-cu ildə iştirak etmişəm. Bu, “Şərq təranələri”ndə artıq beşinci iştirakım idi. Həmin il xanəndə, Əməkdar artist Qoçaq Əsgərovla çıxışımızda birinci yeri qazandıq. Daha sonra 2011-ci ildə Xalq artisti Nəzakət Teymurova ilə çıxış etdik və yer almasaq da, UNESCO-nun “Şərqin ən gözəl səsi” mükafatına layiq görüldük. 2015-ci ildə Əməkdar artist Təyyar Bayramovla çıxış etdik və bu dəfə də “Fərqli ifaya görə” qrupumuza mükafat verildi. 2017-ci ildə Əməkdar artist Sahib Paşazadə mənə təklif etdi ki, festivala instrumental ifa ilə ikimiz qatılaq. Məmnuniyyətlə razılaşdım. Bu da bir gözəl iş oldu ki, festivalın tarixində ilk dəfə instrumental çıxış oldu və bu çıxış Qran-pri mükafatına layiq görüldü. Bu, Azərbaycan muğam sənətində instrumental ifaçılıq üçün böyük uğur idi. Çox şadam ki, bu uğurda mənim də payım var.

Bu il isə “Simurq” muğam qrupundan təklif aldım. Az vaxt ərzində səmərəli məşqlərimiz oldu. Şükürlər olsun ki, bu dəfə də böyük uğur qazandıq. Bu artıq “Şərq təranələri”ndə qalibiyyət sevincini yaşadığım ikinci Qran-pri mükafatıdır. Dünyanın bir çox ölkələrində festivallarda olmuşam. Özbəkistanla qardaşlıq münasibətlərimiz, yaxın mədəniyyətlərimiz bizi bir-birimizə doğmalaşdırır. Sonda isə onu demək istərdim ki, yeddi ildən sonra birgə səhnəni bölüşdüyüm musiqiçi həmkarım, Əməkdar artist Sahib Paşazadəni münsiflər heyətinin rəhbəri kimi görmək həm Azərbaycanımız, həm də bir musiqiçi olaraq mənim üçün böyük fəxr idi”.

“Simurq” qrupunun üzvlərinə yeni yaradıcılıq uğurları arzulayırıq.

**Lalə Azəri**

## Xatirə təqvimi — 21 – 24 sentyabr

### Azərbaycan

**21 sentyabr 1865** – Milli teatrımızın ilk peşəkar aktyorlarından biri, rejissor, teatr təşkilatçısı Cahangir Məşədi Rza oğlu Zeynalov (1865 – 22.10.1918) anadan olub. XX əsrin əvvəllərində “Nicat”, “Səfa” və “Nəşri-maarif” mədəni-maarif cəmiyyətləri nəzdindəki teatr truppalarında aktyorluq edib, tamaşalara quruluş verib.

**21 sentyabr 1922** – Azərbaycanda latın qrafikalı əlifba ilə ilk mətbu orqan – “Yeni yol” qəzeti nəşrə başlayıb.

**21 sentyabr 1938** – Şairə, yazıçı Nurəngiz Gün (Quliyeva; 1938 – 20.12.2014) Bakıda doğulub. Azərbaycan Televiziyasının diktoru olub, Mədəniyyət və İncəsənət Universitetində dərs deyib. “Var olun, qızlar...” filmində çəkilib.

**21 sentyabr 1947** – Əməkdar mədəniyyət işçisi Nizami Tahir oğlu Məmmədov (1947 – 16.9.2021) Naxçıvan şəhərində doğulub. Naxçıvan Dövlət Filarmoniyası estrada orkestrinin bədii rəhbəri və baş dirijoru olub.

**21 sentyabr 1982** – Əməkdar artist Hacıməmməd Ələkbər oğlu Qafqazlı (Quliyev; 24.3.1898 –1982) vəfat edib. Akademik Dram Teatrında çalışıb. “Qızmar günəş altında”, “Yeddi oğul istərəm” və s. filmlərdə çəkilib.

**22 sentyabr 1909** – İlk azərbaycanlı kinorejissorlardan Səməd Həşim oğlu Mərdanov (1909 – 6.8.1939) anadan olub. 1939-cu ildə “Kəndlilər” bədii filmini çəkib. Tanınmış aktyor Mustafa Mərdanovun qardaşıdır.

**22 sentyabr 1924** – Əməkdar artist, kontrabas ifaçısı İlyas Hüseyn oğlu Hüseynov (1924–2017) Bakıda doğulub. Bakı Musiqi Akademiyasının professoru olub.

**22 sentyabr 1929** – Publisist, ictimai xadim Əhməd bəy Qaraca (1929-2005) anadan olub. Türkiyədə M.Rəsulzadənin yaratdığı Azərbaycan Kültür Dərnəyinə 1955-ci ildən rəhbərlik edib, dərnəyin “Azərbaycan” jurnalının redaktoru olub.

**22 sentyabr 1929** – Əməkdar elm xadimi, filosof Həsən İsmayıl oğlu Şirəliyev (1929 – 30.11.1997) anadan olub.

**22 sentyabr 1938** – Əməkdar incəsənət xadimi, tarzən-pedaqoq Oqtay Süleyman oğlu Quliyev (1938 – 6.4.2021) Ağdamda doğulub. Azərbaycan Milli Konservatoriyası Xalq çalğı alətləri kafedrasının professoru olub.

**22 sentyabr 1947** – Əməkdar mədəniyyət işçisi Atababa İsmayıl oğlu Hacıbabayev (1947 – 18.9.2022) anadan olub. Akademik Milli Dram Teatrının ədəbi hissə müdiri işləyib. Mədəniyyət və İncəsənət Universitetində dərs deyib.

**22 sentyabr 1964** – Məşhur xanəndə, Qarabağ muğam ifaçılığı məktəbinin görkəmli nümayəndəsi İslam Əbdül oğlu Abdullayev (1876-1964) vəfat edib. “Segah” muğamının təkrarsız ifaçısı (Segah İslam) kimi tanınıb.

**22 sentyabr 2017** – IX Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı çərçivəsində Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin 50 illik yubileyi qeyd olunub.

**23 sentyabr 1928** – Opera müğənnisi, SSRİ Xalq artisti Firəngiz Yusif qızı Əhmədova (1928 – 16.12.2011) Bakıda doğulub. Akademik Opera və Balet Teatrının solisti (1951-1988) olub. Əsas partiyaları: Nigar (“Koroğlu” – Ü.Hacıbəyli), Nərgiz, Gülzar (“Nərgiz”, “Şah İsmayıl” – M.Maqomayev), Sevil (“Sevil” – F.Əmirov) və s.

**23 sentyabr 1928** – Arxeoloq, tarix elmləri doktoru Rauf Maqomedoviç Munçayev (1928 – 4.7.2021) Zaqatalada doğulub. Rusiya EA-nın Arxeologiya İnstitutunun direktoru olub.

**23 sentyabr 1929** – Yazıçı-jurnalist, Əməkdar incəsənət xadimi Əfqan (Əfqan Hacıağa oğlu Əsgərov; 1929 – 13.2.2022) Salyan rayonunun Qarabağlı kəndində anadan olub. “Həsrət də bir vüsaldır”, “Qartal əfsanəsi” romanları, “Dədə Bəhmən” trilogiyası və s. əsərlərin müəllifidir.

**23 sentyabr 1929** – Tarixçi, şərqşünas, türkoloq Yusif Bəhlul oğlu Yusifov (1929 – 4.1.1998) Qərbi Azərbaycanın Vedi mahalında doğulub. Azərbaycan Pedaqoji Universitetinin professoru, mixi yazılar üzrə mütəxəssis olub.

**23 sentyabr 1957** – Əməkdar artist, qarmon ifaçısı Etibar İsmayıl oğlu Qasımbəyli (1957 – 27.10.2020) Bakıda doğulub.

**23 sentyabr 1969** – Şair-publisist Ülvi Yusif oğlu Bünyadzadə (1969 – 20.1.1990) anadan olub. 20 Yanvar şəhididir.

**23 sentyabr 1970** – Görkəmli yazıçı-dramaturq, ssenarist Sabit Rəhman (Sabit Kərim oğlu Mahmudov; 26.3.1910 – 1970) vəfat edib. “Toy”, “Nişanlı qız”, “Əliqulu evlənir” və s. pyeslərin, “Əhməd haradadır?”, “Ulduz” filmlərinin ssenari müəllifidir.

**23 sentyabr 2013** – Əməkdar artist Muxtar Şahmar oğlu İbadov (2.2.1955 – 2013) vəfat edib. Şəki Dram, Dövlət Gənclər teatrlarının aktyoru olub, filmlərə çəkilib.

**23 sentyabr 2014** – Yazıçı, tərcüməçi, Əməkdar mədəniyyət işçisi Ələviyyə Hənifə qızı Babayeva (12.8.1921 – 2014) vəfat edib. “Haradasan, dost, harada”, “Adamlar və talelər”, “Sönmüş ulduzların işığı” və s. romanların müəllifidir.

**23 sentyabr 2015** – Şair, tərcüməçi, Əməkdar mədəniyyət işçisi Məmməd Muxtar oğlu Aslan (24.12.1939 – 2015) vəfat edib.

**23 sentyabr 2023** – Əməkdar mədəniyyət işçisi, səs operatoru Əsəd Fərrux oğlu Əsədov (1.3.1947 – 2023) vəfat edib.

**24 sentyabr 1977** – Şair, Dövlət mükafatı laureatı Əhməd Cəmil (Əhməd Səttar oğlu Cəmilzadə; 20.10.1913 – 1977) vəfat edib. Ədəbi nəşrlərdə müxtəlif vəzifələrdə çalışıb. Rus dilindən ədəbi tərcümələr edib.

**24 sentyabr 2012** – Prezident İlham Əliyev Xalq artisti, tanınmış müğənni Şövkət Ələkbərovanın 90 illik yubileyi haqqında sərəncam imzalayıb.

**24 sentyabr 2022** – Prezident İlham Əliyev mütəfəkkir şair və dramaturq Hüseyn Cavidin 140 illiyinin qeyd edilməsi ilə bağlı sərəncam imzalayıb.

### Dünya

**21 sentyabr 1866** – İngilis yazıçısı Herbert Vells (Herbert George Wells; 1866–1946) anadan olub. Elmi-fantastik əsərlərin müəllifidir: “Zaman maşını”, “Gözəgörünməz adam”, “Aləmlərin savaşı”, “Qarışqalar səltənəti” və s.

**21 sentyabr 1911** – Rus-sovet aktyoru və müğənnisi Mark Bernes (1911–1969) anadan olub.

**22 sentyabr 1694** – İngilis yazıçısı Filip Dormer Stenxop Çesterfild (Philip Dormer Stanhope Chesterfield; 1694–1773) anadan olub.

**22 sentyabr 1875** – Rəssam, bəstəkar, professional Litva musiqisinin banisi Mikaloyus Çurlonis (Mikalojus Konstantinas Ciurlionis; 1875–1911) anadan olub.

**22 sentyabr 1938** – Amerika aktyoru və müğənnisi Din Rid (Dean Cyril Reed; 1938–1986) anadan olub.

**23 sentyabr 1901** – Çexiya yazıçısı və şairi, ədəbiyyat üzrə Nobel mükafatı (1984) laureatı Yaroslav Seyfert (Jaroslav Seifert; 1901–1986) anadan olub.

**23 sentyabr 1913** – Gürcü bəstəkarı, SSRİ Xalq artisti Aleksey Davidoviç Maçavariani (1913–1995) anadan olub. “Pələng dərisi geymiş pəhləvan”, “Otello” baletlərinin müəllifidir.

**23 sentyabr 1930** – Amerika cazmeni və pianoçusu Rey Çarlz (Raymond Charles Robinson; 1930 – 10.6.2004) anadan olub.

**23 sentyabr 1938** – Alman aktrisası Romi Şnayder (Romy Schneider – Rosemarie Magdalena Albach-Retty; 1938–1982) Vyanada doğulub. Filmləri: “Əsas sevməkdir”, “Kristina”, “Köhnə tüfəng” və s.

**24 sentyabr 1896** – Amerika yazıçısı Frensis Skott Fitscerald (Francis Scott Key Fitzgerald; 1896 – 21.12.1940) anadan olub. Əsərləri: “Cənnətin bu tərəfində”, “Gözəl və lənətlənmişlər”, “Böyük Qetsbi” və s.

**Hazırladı: V.Orxan**

№70 (2135)
20 sentyabr 2024
www.medeniyyet.az

# “GastroAntep” Mədəniyyət Yolu Festivalı – zəngin mətbəx və mədəni irs bir arada

Türkiyə Cümhuriyyəti Mədəniyyət və Turizm Nazirliyinin bu ilin aprel ayından davam edən Mədəniyyət Yolu Festivalının daha bir ünvanı qədim tarixi, təbii gözəllikləri, mədəni dəyərləri və ələlxüsus da zəngin mətbəxi ilə tanınan Qaziantepdir. Təsadüfi deyil ki, festivalın bu mərhələsinin adına mətbəx (qastronomiya) kəlməsi əlavə edilib. Qaziantepdə ənənəvi olaraq təşkil edilən qastronomiya festivalı – “GastroAntep” bu dəfə Mədəniyyət Yolu Festivalı ilə bir arada gerçəkləşir.




Beləliklə, mətbəx zənginliyinə görə UNESCO siyahısında belə yer alan qastronomiya şəhəri 14–22 sentyabr tarixlərində keçirilən “GastroAntep” Mədəniyyət Yolu Festivalı ilə bir daha özünü dünyaya tanıdır. Dünyanın müxtəlif ölkələrindən media mənsublarının da dəvət edildiyi festivalın iştirakçıları arasında bir neçə gün ərzində bu sətirlərin müəllifi də oldu.

***

Mədəniyyət və Turizm Nazirliyi ilə Qaziantep Böyükşəhər Bələdiyyəsinin təşkil etdiyi festivalın açılışından öncə mətbuat konfransı keçirildi.

Mədəniyyət və turizm naziri Mehmet Nuri Ərsoyun bildirdi ki, qastronomiya dedikdə təkcə Türkiyədə deyil, dünyada ilk ağıla gələn şəhərlərdən biri də Qaziantepdir: “Tarixi İpək Yolu üzərində yerləşən, Anadolu tarixi boyunca bir çox sivilizasiyaya ev sahibliyi edən, memarlığı, təbiəti və bənzərsiz qastronomiya mədəniyyəti ilə hər kəsi valeh edən qədim Qaziantepin marka dəyərinə töhfə verəcək fəaliyyətləri hər zaman dəstəkləmişik və dəstəkləməyə də davam edəcəyik. Bu anlayışla “GastroAntep” Mədəniyyət Yolu Festivalı üçün zəngin proqram hazırladıq”.



Bu il mövzusu “Sağlam həyat və qastronomiya iqtisadiyyatı” olan “GastroAntep” Mədəniyyət Yolu Festivalının proqramı da bölgənin mətbəxi kimi zəngindir.

Hər il burada məşhur Qaziantep fıstığının toplanma mövsümündə keçirilən ənənəvi festivala bu dəfə İspaniya, İtaliya, Belçika, Yunanıstan və Böyük Britaniya kimi beş ölkənin kulinariya mədəniyyəti və qastronomiya səfiri olan dünyaca tanınmış, bir çox mükafatlara layiq görülmüş aşpazlar da qatılıb və müxtəlif seminarlar, ustad dərsləri keçirirlər.

Çeşidli yemək şouları və “Yerli aşpaz” yarışlarının da keçirildiyi festivala Türkiyənin məşhur hotel və restoranlarından peşəkarlar, sərmayəçilər, milli və beynəlxalq qida şirkətləri, butik fermerlər, alimlər, sənaye nümayəndələri və əlbəttə ki, sənətçilər, musiqi və rəqs qrupları da qatılıb.

“GastroAntep”in davam etdiyi doqquz gün ərzində Qaziantepin mədəni irsi və mətbəxi ilə yanaşı, Türkiyənin Emir Can İğrek, Simge, Bengü, Gökhan Türkmen, Murat Boz, Haluk Levent, Buray, Berkay kimi tanınmış sənətçiləri konsert proqramları ilə də hər kəsə unudulmaz anlar yaşadır.

Qaziantep Böyükşəhər Bələdiyyəsinin başqanı Fatma Şahin illərdir keçirilən “GastroAntep” festivalının “Mədəniyyət Yolu” layihəsinə qoşulmasının əhəmiyyətini vurğuladı: “Mədəniyyət bir kimlikdir. Sivilizasiyamızın güzgüsü və mahiyyəti, onun mayasıdır. Bizi digərlərindən fərqləndirən də bu mövqedir. Məqsədimiz bu şəhərin bütün gözəlliklərini, tarixini və dəyərlərini dünyaya tanıtmaqdır”.

***

Mətbuat konfransından sonra Qaziantep Böyükşəhər Bələdiyyəsi tərəfindən bərpa edilən tarixi binada “Sabun və bəkməz muzeyi”nin açılış mərasimi keçirildi. Keçmişdən bu günə zeytun yağı, sabun, bəkməz və mərcimək istehsalı ilə şəhərdə əhəmiyyətli bir yerə sahib olan və içindən keçən pilləkənlə iki küçəni birləşdirən unikal quruluşlu tikili – mehmanxana muzeyə çevrilib. Burada zeytunların yetişdirilməsi, yığılması, yağ əmələgəlməsindən sabun hazırlanmasına, üzüm bağlarından məhsulun toplanmasından bəkməz bişirilməsinədək “macəra”nı vizual materiallar, videofilmlər və rəqəmsal təqdimatlarla diqqətə çatdırırlar.

Muzeyə ekskursiya zamanı sabun nümunələri təqdim olunur, bəkməz emalatxanasında şərbətdən hazırlanmış innovativ məhsulların dadına baxmaq imkanı yaradılır.

***



Tədbirin ikinci günündə “GastroAntep” Mədəniyyət Yolu Festivalının kortej yürüşü oldu. Festivallar parkında təntənəli açılış mərasimi keçirildi. Bildirildi ki, festivalda bolluq, qardaşlıq, sevgi, məhəbbət, birlik ruhu və bu gün gördüyünüz gözəllik var. Dünyanın yaxşılaşmağa ehtiyacı var. Mədəniyyət və incəsənət də bəşəriyyəti sağaldır. Dünyanın “İnsanları yaşat ki, dövlət yaşasın” anlayışına ehtiyacı var.

Hər tərəfində bayram əhvalı hiss edilən Qaziantepin parklarında artıq şəhərin marka məhsullarına çevrilən mətbəx nümunələri təqdim edilir. “Tarladan süfrəyə” layihəsi isə bölgənin kənd təsərrüfatı məhsullarını nümayiş etdirir və festival müddətində kəndliyə istehsal etdiyi məhsulları satmaq imkanı yaradılır.

Qeyd edək ki, festival 9 gün ərzində 50-yə yaxın məkanda 500-dən çox tədbirlə davam edir.

***

Bələdiyyə başqanı Fatma Şahin bizimlə söhbətində Qaziantep və Azərbaycan mətbəxinin tanıdılması üçün birgə fəaliyyətlər icra edəcəklərini də bildirdi: “Yaradıcılığı, tarixi və mədəni zənginliyi ilə tanınan Qaziantep həm də mətbəxi ilə 2015-ci ildə UNESCO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinə daxil edilən Türkiyənin ilk şəhəridir. Azərbaycan mətbəxindən də müxtəlif nümunələrin UNESCO-nun siyahısında yer alması haqqında məlumatımız var. Türkiyə ilə Azərbaycanın müxtəlif sahələrdə sarsılmaz ittifaqı mövcuddur. Mətbəximizdə nədən olmasın? Türkiyədə çeşidliliyinə görə ön sırada olan Qaziantep mətbəxinin Azərbaycanda, Azərbaycan mətbəxini də bizdə tanıda bilərik. COP29 çərçivəsində Azərbaycana səfər edəcəyik. O zaman biz bu məsələlər haqda bir daha müzakirə aparacağıq. Gələnilki festivalımıza azərbaycanlı aşpazları da dəvət etmək niyyətindəyik”.

Fatma Şahin Qaziantepin yaxın gələcəkdə Azərbaycan şəhərlərindən biri ilə qardaşlaşa biləcəyini də dedi. Bildirdi ki, Azərbaycanla Türkiyə bələdiyyələri arasında 23 şəhər qardaş şəhər elan edilib. Qaziantep də bu sırada yer almaq istəyir: “Sentyabrın 11-də Kahramanmaraşda Azərbaycan məktəbinin açılışında Azərbaycanın Türkiyədəki səfiri ilə bu barədə söhbətimiz olub. Azərbaycana edəcəyimiz səfər çərçivəsində bu məsələni bir daha gündəmə gətirəcəyik”.

“Azərbaycanla Türkiyənin hər məsələdə bir-birinə dayaq olması artıq bütün dünya üçün nümunədir” deyən F.Şahin qeyd etdi ki, keçənilki dəhşətli zəlzələ zamanı bizə ilk kömək Azərbaycandan gəldi və hələ də qanayan yaralarımıza azərbaycanlı qardaşlarımız məlhəm olur.

Beləcə, tarixi, mədəniyyəti, ənənəvi mətbəxi özündə birləşdirən Qaziantep şəhərindən xoş təəssüratlarla ayrılırıq. “GastroAntep” Mədəniyyət Yolu Festivalı isə davam edir.

Onu da əlavə edək ki, Türkiyə Mədəniyyət Yolu Festivalının qarşıda daha altı mərhələsi (Ankara, Konya, İstanbul, Diyarbəkir, İzmir, Antalya) var. Festival noyabr ayında başa çatacaq.

**Mehparə Sultanova**
**Ankara**

# Polad Bülbüloğlu Başqırdıstanın da Xalq artisti oldu

Azərbaycanın Rusiya Federasiyasındakı səfiri, Xalq artisti Polad Bülbüloğlu bu ölkədə diplomatik fəaliyyətini başa vurmaq ərəfəsində daha bir fəxri ad alıb. Görkəmli bəstəkar və müğənniyə RF “Başqırdıstan Respublikasının Xalq artisti” adı verilib.



Ufa şəhərində keçirilən MDB iştirakçı dövlətlərinin Yaradıcı və Elmi Ziyalılarının XVII Forumunda Başqırdıstan Respublikasının rəhbəri Radi Xabirov fəxri adın vəsiqə və nişanını Polad Bülbüloğluna təqdim edib.

Qeyd edək ki, 2006-cı ildən Azərbaycanın Rusiyada səfiri olan Polad Bülbüloğlu 2010-cu ildən MDB-yə üzv dövlətlərin Humanitar Əməkdaşlıq Fondunun idarə heyətinə də rəhbərlik edib. MDB ölkələri yaradıcı və elmi ziyalılarını bir araya gətirən ənənəvi forum hər il Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun himayəsi ilə keçirilir. Builki forum 17-19 sentyabr tarixlərində Ufada təşkil edilib.

Xatırladaq ki, Polad Bülbüloğlu bu yaxınlarda “Özbəkistan Respublikasının Xalq artisti” adına da layiq görülüb.

# “Maestro: ildırımlı yollarla” üzü festivala

Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin baş dirijoru, Əməkdar artist Fuad İbrahimovun həyat və yaradıcılığına həsr olunmuş sənədli film çəkilib.




Gənc rejissor Hüseynağa Aslanovun çəkdiyi “Maestro: ildırımlı yollarla” (“Maestro: The Parth of Thunder”) filmi Türk Dünyası IX Beynəlxalq Sənədli Filmlər Festivalının finalına vəsiqə alıb. Festivalın müsabiqə proqramına 12 tammetrajlı, 12 qısametrajlı və 12 tələbə sənədli filmi daxildir.

Festival 16-18 oktyabr tarixlərində Ankarada keçiriləcək. Qalib filmlər Azərbaycan da daxil olmaqla doqquz ölkədə nümayiş olunacaq.

Festival Türk Dünyası Jurnalistləri Federasiyasının təşkilatçılığı, Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin Kino Baş İdarəsi, TÜRKSOY, Türk Dünyası Bələdiyyələr Assosiasiyası və digər qurumların dəstəyi ilə keçirilir.

**Gülcahan**

# Azərbaycan və Venesuela ədəbiyyatlarının qarşılıqlı tanıdılması müzakirə olunub

Azərbaycan Dövlət Tərcümə Mərkəzində (ADTM) Venesuelanın ölkəmizdəki səfiri Kristofer Alberto Martinez Berroteran ilə görüş keçirilib.



Mərkəzdən bildirilib ki, görüş zamanı Venesuela ədəbiyyatının Azərbaycanda, Azərbaycan ədəbiyyatının Venesuelada tanıdılması istiqamətində həyata keçirilən, eləcə də nəzərdə tutulan tərcümə və nəşr layihələrindən söz açılıb.

Ədəbi əlaqələrin genişləndirilməsi üzrə əməkdaşlıq, tanıtım və yayım tədbirləri ətrafında fikir mübadiləsi aparılıb. Venesuela şairi Anna Mariya Oviedo Palomaresin ADTM tərəfindən tərcümə və nəşr olunmuş “Söyüd krallığı” kitabının bu ilin oktyabrında X Bakı Beynəlxalq Kitab Sərgisində keçiriləcək təqdimatı ilə bağlı təşkilati məsələlər müzakirə olunub.

Ədəbiyyatın xalqları bir-birinə yaxınlaşdıran ən etibarlı körpü olduğunu bildirən səfir gələn ilin may ayında qeyd olunacaq Venesuela-Azərbaycan diplomatik əlaqələrinin 30 illiyi ərəfəsində Venesuela yazıçısı Migel Otero Silvanın kitabının ADTM ilə əməkdaşlıq çərçivəsində tərcümə və nəşr olunması təklifini irəli sürüb. Diplomat bildirib ki, Azərbaycan dilində ilk dəfə işıq üzü görəcək kitab iki ölkə arasındakı münasibətlərə əlamətdar töhfə ola bilər.

Xronoqraf

# Tarixdə bu gün

Olaylar, faktlar (21 – 24 sentyabr)



### 119 il əvvəl...



**24 sentyabr 1905-ci ildə** Norveç İsveç Krallığından ayrılaraq müstəqil dövlət olub. İsveç-Norveç uniyası (ittifaqı) 1751-ci ildə bağlanmışdı. Həmin ittifaqadək Danimarka Krallığının nəzarəti altında olan Norveç İsveçlə uniya bağladıqdan sonra nisbi özünüidarə hüququ qazanmışdı. Müstəqilliyini elan edəni Norveçin ilk kralı isə danimarkalı VII Haakon oldu. Danimarka Norveçin ərazisi sayılan Qrenlandiyanı da nəzarətində saxladı.

### 116 il əvvəl...

**22 sentyabr 1908-ci ildə** Bolqarıstan Osmanlı imperiyasının tərkibindən çıxaraq müstəqilliyini elan edib. XIV əsrin sonundan Osmanlının nəzarətinə keçən Bolqarıstan 1877–1878-ci illərin Rusiya-Türkiyə müharibəsindən sonra muxtar knyazlıq statusu almışdı.

### 92 il əvvəl...

**23 sentyabr 1932-ci ildə** Səudiyyə Ərəbistanı Krallığı yaranıb. Ərəbistan yarımadasında geniş sahəni (2,15 milyon kv km) əhatə edən Səudiyyə tayfalarının birləşmə prosesi XIX əsrin əvvəlində başlamışdı. 1927-ci ildə İbn Səud Hicaz, Hecd və s. bölgələri birləşdirdi, beş il sonra Səudiyyə Ərəbistanı krallıq elan edildi.

### 60 il əvvəl...

**21 sentyabr 1964-cü ildə** Britaniyanın müstəmləkəsi olan Malta müstəqilliyini elan edib. Aralıq dənizindəki ada-dövlət Malta 1800-cü ildə ingilislərin nəzarətinə keçmiş və burada Britaniyanın hərbi dəniz bazası qurulmuşdu. Müstəqillik əldə etsə də, Malta formal olaraq Britaniya Birliyinə daxildir.

### 63 il əvvəl...

**22 sentyabr 1960-cı ildə** Fransanın Qərbi Afrikadakı müstəmləkəsi olan Mali müstəqilliyini elan edib. Mali 1890-cı ildən Fransanın nəzarətində (Fransa Sudanı adı ilə) idi.

### 44 il əvvəl...

**22 sentyabr 1980-ci ildə** İraq-İran müharibəsi başlayıb. İraq qoşunları İranla sərhəddə Şatt əl-Ərəb çayını nəzarətə götürməsi müharibənin faktiki səbəblərindən idi. 8 il sürən və iki tərəfdən 1 milyondan çox insanın öldüyü müharibədə qalib olmadı. İki ölkənin sər-



hədində 1980-ci ilədək mövcud olan status-kvo bərpa edildi.

### 35 il əvvəl...

**23 sentyabr 1989-cu ildə** Azərbaycan SSR Ali Soveti “Azərbaycan SSR-in dövlət suverenliyi haqqında” Konstitusiya qanunu qəbul edib. Sənəddə qeyd olunurdu ki, ittifaq (SSRİ) səviyyəsində qəbul olunmuş qanunvericilik aktı Azərbaycanın suverenliyinə xələl gətirərsə, onun respublika ərazisində qüvvəsi dayandırılır.

### 31 il əvvəl...

**24 sentyabr 1993-cü ildə** Azərbaycan Müstəqil Dövlətlər Birliyinə (MDB) daxil olub. Moskvada MDB dövlət başçılarının sammitində iştirak edən Ali Sovetin sədri, Prezident səlahiyyətlərini icra edən Heydər Əliyev ölkəmizin quruma üzvlüyü barədə sənədləri imzalayıb.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib,
“Azərbaycan“ nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 2159
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641